## PREZİDENT İLHAM ƏLİYEV ABŞ-IN MÜDAFİƏ NAZİRLİYİNİN NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL EDİB



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 4-də Amerika Birləşmiş Ştatlarının müdafiə nazirinin müavininin müşaviri xanım Laura Kuperin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Azərbaycanla ABŞ arasında əməkdaşlığın müxtəlif sahələrdə uğurla inkişaf etdiyini bildirib. Prezident İlham Əliyev qarşılıqlı səfərlərin, o cümlədən ABŞ Prezidentinin milli təhlükəsizlik məsələləri üzrə müşaviri Con Boltonun...

Bax səh. 3

## PREZİDENT İLHAM ƏLİYEV TÜRKİYƏNİN NƏQLİYYAT VƏ İNFRASTRUKTUR NAZİRİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL EDİB



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 4-də Türkiyə Respublikasının nəqliyyat və infrastruktur naziri Mehmet Cahit Turhanın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Türkiyənin nəqliyyat və infrastruktur naziri Mehmet Cahit Turhanın...

Bax səh. 3



Yeni Azərbaycan Partiyası Azərbaycanı müstəqillik yolunda inkişaf etdirməyə qadir bir partiyadır

# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. 05 dekabr 2018-ci il, çərşənbə / № 230 (5357). Yeni Azərbaycan Partiyasının orqanı. Qiyməti 40 qəpik

# Azərbaycan Prezidenti İlham Əliyev “Bakutel-2018” sərgisi ilə tanış olub





## Prezidentin iş günü

Prezident İlham Əliyev XXIV beynəlxalq “Bakutel-2018” telekommunikasiya, innovasiya və yüksək texnologiyalar sərgi və konfransının iştirakçılarını təbrik edib. Təbrikdə deyilir: **“Hörmətli sərgi və konfrans iştirakçıları!**

**Sizi ölkəmizin paytaxtı Bakı şəhərində XXIV beynəlxalq “Bakutel-2018” telekommunikasiya, innovasiya və yüksək texnologiyalar sərgi və konfransının açılışı münasibətilə səmimi salamlayır, hər birinizə uğurlar arzulayıram.**

**Yüksək texnologiyalar sahəsində mühüm hadisələrdən olan sərgi və konfransınızın informasiya-kommunikasiya texnologiyaları sektoru nümayəndələrinin ənənəvi görüş məkanına çevrilməsi sevindirici haldır. Ən son yeniliklərin və texnoloji nailiyyətlərin nümayiş etdirilməsi baxımından geniş imkanlara malik “Bakutel” platformasında informasiya-kommunikasiya sənayesi təmsilçiləri, aparıcı biznes rəhbərləri və mütəxəssislər özlərinin qlobal əhəmiyyətli layihələr və eləcə də gələcək inkişaf perspektivləri ilə bağlı fikirlərini bölüşərək həlledici qərarlar qəbul edirlər.**

**Bu gün Azərbaycanda telekommunikasiya üzrə yeni texnologiyaların tətbiqi və xidmət şəbəkəsinin ən müasir standartlara uyğunlaşdırılması istiqamətində ardıcıl tədbirlər həyata keçirilməkdədir. Vətəndaşların telekommunikasiya, poçt və digər xidmətlərlə daha keyfiyyətli təmin olunması məqsədilə yaradılmış “Şəbəkə” xidmət mərkəzlərinin sayı davamlı artırılır. İnformasiya-kommunikasiya texnologiyalarının cəmiyyət həyatının ayrı-ayrı sahələrində geniş tətbiqi və məlumatların vahid mərkəzdə təhlükəsiz saxlanması üçün beynəlxalq səviyyədə təhlükəsizlik standartlarına cavab verən Data Mərkəzi qurulmuşdur.**

**Azərbaycan Poçtu ənənəvi xidmətlərlə yanaşı, bank-maliyyə xidmətləri də göstərir. Milli poçtumuz beynəlxalq tranzit poçt mərkəzi kimi fəaliyyətə başlamışdır. İnformasiya-kommunikasiya texnologiyalarına marağın artırılması və gənclərin innovativ ideyalarına dəstək məqsədilə paytaxtda, həmçinin bölgələrdə “İdeyadan Biznesə” startap turları və müxtəlif yarışlar təşkil olunur. Bu yaxınlarda ölkəmizdə ilk dəfə olaraq beynəlxalq “İnnovasiyalar həftəsi” keçirilmişdir. Layihə çərçivəsində ziyarətçilər yüksək texnologiyalar və innovasiyalara dair yeniliklərlə yaxından tanış olmaq imkanı qazanmışlar.**

**Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin tabeliyində İnnovasiyalar Agentliyinin yaradılmasının ölkəmizdə yüksək texnologiyaların inkişaf tempini daha da artıracağına əminliyimi ifadə etmək istərdim. İnanıram ki, sərgi və konfrans aparacağınız geniş müzakirələr və keçirəcəyiniz səmərəli görüşlərlə qarşılıqlı əməkdaşlıq əlaqələrinin dərinləşməsinə və yeni təşəbbüslərin meydana çıxmasına yol açacaq, informasiya-kommunikasiya texnologiyaları sənayesinin inkişafına öz töhfəsini verəcəkdir”.**

◆ ❖ ◆

Prezident İlham Əliyev Cəfər Cabbarlı adına Respublika Gənclər Kitabxanasının əməkdaşlarının “Tərəqqi” medalı ilə təltif edilməsi haqqında Sərəncam imzalayıb.

◆ ❖ ◆

Prezident İlham Əliyev Tailandın Kralı Əlahəzrət Maha Vaciralonqkorn Bodindradebayavaranqkuna təbrik məktubu göndərib.



## ADA UNİVERSİTETİNDƏ AZƏRBAYCANLI DİPLOMATLARIN PARİS SÜLH KONFRANSINDAKI FƏALİYYƏTİNDƏN BƏHS EDƏN KİTABIN TƏQDİMATI OLUB

Dekabrın 4-də ADA Universitetində Georq Mamuliya və Ramiz Abutalıbovun müəllifliyi ilə “Ə.M.Topçubaşi. Paris arxivi. 1919-1940”...

Bax səh. 3

## DÖVLƏT STATİSTİKA KOMİTƏSİ: DEKABRIN 4-DƏK 221 MİN TONDAN ÇOX PAMBIQ TƏDARÜK OLUNUB

Dekabrın 4-dək ölkə üzrə qəbul məntəqələrinə 221 min 284 ton pambıq təhvil verilib.

Dövlət Statistika Komitəsindən AZƏRTAC-a bildiriblər ki, bu, ötən ilin eyni dövrü ilə müqayisədə 12,8 faiz çoxdur.

Pambıq tədarükündə Saatlı (29 min 228 ton), Bərdə (24 min 122 ton), Ağcabədi (22 min 301 ton), Biləsuvar (21 min 25 ton) və Beyləqan (20 min 753 ton) rayonları irəlidə gedirlər.

Respublikada pambıq yığımı davam edir.

Xatırladaq ki, 2018-ci ildə ölkəmizdə 132 min 512 hektar sahədə pambıq əkilib. Pambıq tədarükündəki artım məhsuldarlığın yüksəldilməsi hesabına təmin olunub. Hazırda emal müəssisələrinə təhvil verilmiş pambığın hər kiloqramına görə dövlət tərəfindən fermerlərə 10 qəpik subsidiya verilir. Həmçinin bu il pambığın növlər üzrə mövcud alış qiymətləri hər ton üçün 50 manat olmaqla, 1-ci növün qiyməti 600-dən 650 manata, 2-ci növün qiyməti 580-dən 630 manata, 3-cü növün qiyməti 540-dan 590 manata, 4-cü növün qiyməti isə 500-dən 550 manata qədər artırılıb.



## AZƏRBAYCAN İLƏ ABŞ ARASINDA HƏRBİ-TEXNİKİ ƏMƏKDAŞLIĞIN DAHA DA GENİŞLƏNDİRİLMƏSİ MƏSƏLƏLƏRİ MÜZAKİRƏ EDİLİB

Dekabrın 4-də Azərbaycan Respublikasının müdafiə naziri, general-polkovnik Zakir Həsənov ölkəmizdə səfərdə olan ABŞ müdafiə nazirinin müavininin müşaviri xanım Laura Kuperin başçılıq etdiyi...

Bax səh. 5

### *Hikmət Hacıyev:* Ziddiyyətlərdən uzaq duran Azərbaycan səmərəli əməkdaşlıq formaları ilə öz nümunəsini təqdim edir

Çoxşaxəli beynəlxalq əməkdaşlığı dəstəkləyən Azərbaycan 2019-2022-ci illərdə...




Bax səh. 5

### *Məleykə Abbaszadə:* Azərbaycanda dövlət qulluğuna qəbul yüksək standartlara uyğun həyata keçirilir

Müasir müstəqil Azərbaycan Respublikasında dövlət qulluğu sahəsində islahatların əsası Ümummilli lider Heydər Əliyev...



Bax səh. 4

### “Regional İnkişaf” İctimai Birliyi könüllülərinin birinci ümumrespublika konfransı keçirilib

Dekabrın 4-də Şəki şəhərindəki Heydər Əliyev Mərkəzində “Regional İnkişaf” İctimai Birliyi (RİİB) könüllülərinin birinci ümumrespublika konfransı keçirilib...



Bax səh. 7

### Tarixçi-alimin növbəti kitabı Cümhuriyyət irsinin tədqiqinə həsr olunub

Prezident İlham Əliyevin müvafiq Sərəncamı ilə Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi ölkəmizdə silsilə tədbirlərə qeyd edilməkdədir. Ölkə başçısı tərəfindən elan olunan “Azərbaycan Xalq Cümhuriyyəti İli”...




Bax səh. 4

# Azərbaycan Prezidenti İlham Əliyev “Bakutel-2018” sərgisi ilə tanış olub







Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva, qızları Leyla Əliyeva və Arzu Əliyeva dekabrın 4-də Bakı Ekspo Mərkəzində XXIV Azərbaycan Beynəlxalq Telekommunikasiya, İnnovasiya və Yüksək Texnologiyalar Sərgisi - “Bakutel-2018” ilə tanış olublar.

AZƏRTAC xəbər verir ki, nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri Ramin Quluzadə dövlətimizin başçısına və xanımına sərgi barədə məlumat verib.

Bildirilib ki, builki sərgidə 20 ölkədən 230 şirkət iştirak edir. Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Beynəlxalq Telekommunikasiya İttifaqı, Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondu və Azərbaycan Respublikası Sahibkarlar Təşkilatları Milli Konfederasiyasının dəstəyi ilə keçirilən sərgidə 10 ölkə - ABŞ, Türkiyə, Belarus, Birləşmiş Ərəb Əmirlikləri, Fransa, İtaliya, Polşa, Xorvatiya, İran, Sloveniya milli pavilyonla təmsil olunur.

Prezident İlham Əliyevə nazirliyin qurumlarının, müəssisələrinin məhsul və xidmətləri, həyata keçirdiyi layihələri barədə məlumat verilib.

Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin dəstəyi ilə həyata keçirilən “Robopark” layihəsinin məqsədi məktəblilərin müasir elmi-texniki biliklərinin artırılması, intellektual elmi-texniki yaradıcılığının inkişafı, yüksək texnologiyalar sahəsinə marağın artırılması, eyni zamanda, robot texnikasının əsasları ilə bağlı məlumatlar əldə etmələrinə imkan yaratmaqdır. Layihə çərçivəsində nazirlik Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı ilə birgə 23 nömrəli orta məktəbdə ilk “Robopark” robot texnika laboratoriyası yaradıb.

Nazirlik tərəfindən “İdeyadan Biznesə” layihəsinin icrasına bu ilin aprelindən başlanılıb. Layihənin reallaşdırılmasına Heydər Əliyev Fondunun Regional İnkişaf İctimai Birliyi, Azərbaycan Gənclər Fondu, Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı, “Microsoft” və “Azercell” şirkətləri dəstək olub. Yeddi ay ərzində respublikanın ayrı-ayrı şəhər və rayonlarında keçirilən startap turuna 2 mindən çox iştirakçı qatılıb. Ümumilikdə seçilən 75 komandadan 15-i respublika finalında iştirak hüququ qazanıb.

Nazirliyin İnformasiya Texnologiyalarının İnkişafı Dövlət Fondu tərəfindən qrant alan layihələr kommersiyalaşdırılmış layihələr hesab edilir. Nazirliyin İnformasiya Texnologiyalarının İnkişafı Dövlət Fondu bu məqsədlə keçirdiyi 6 müsabiqə üzrə ümumilikdə 117 layihəyə qrant ayırıb. Layihələrdən 20-si kommersiyalaşdırılıb və fəaliyyətini davam etdirərək bazarda öz yerini tutub.

“Bakı Telefon Rabitəsi” MMC - “Baktelecom” və “Aztelekom” sərgidə birgə stendlə təmsil olunur. “Baktelecom” GPON texnologiyası ilə “Evədək optika” layihəsini davam etdirir. Bu il 40 min mənzildə bu texnologiya vasitəsilə infrastruktur yaradılıb. Cari ilin əvvəlindən Bakı şəhərində və regionlarda rabitə infrastrukturunun məhdud olduğu ərazilərdə LTE texnologiyası tətbiq edilir. “Aztelecom” ilkin olaraq Xaçmazın kəndlərində simsiz rabitə xidmətinin tətbiqinə başlayıb. Bundan başqa, bu il “Aztelekom” magistral şəbəkənin müasir standartlarla yenidən qurulması layihəsinə də start verib.

Azərbaycanın malik olduğu ilk regional Data Mərkəzinin “Microsoft” şirkəti ilə əməkdaşlığı nəticəsində müştərilərə ən əlverişli şərtlərlə virtual mühit üçün lisenziyalaşdırılmış əməliyyat sistemi təqdim olunur. Burada saxlanılan məlumatların və beynəlxalq səs trafikinin ehtiyat bazasının yaradılması məqsədilə növbəti ilin ikinci rübündə istifadəyə verilməsi planlaşdırılan Yevlax Ehtiyat Data Mərkəzinin inşası davam edir. Bununla yanaşı, Dövlət Data Mərkəzi layihəsi üzərində də işlərə başlanılıb.

Gələn il Məlumat Hesablama Mərkəzi tərəfindən istifadəçi ilə veb-səhifənin



serveri arasında şifrəli məlumat mübadiləsini həyata keçirmək üçün lazım olan, Azərbaycanda ilk dəfə təhlükəsizlik sertifikatlarının verilməsinə başlanacaq. İndiyədək həm dövlət, həm də özəl saytlar bu sertifikatı xaricdən əldə edirdi. Gələcəkdə bu sertifikatların ixracı da mümkündür. Müəssisə və təşkilatlarda sənəd dövriyyəsini elektronlaşdırmağa imkan verən “Made in Azerbaijan” brendinə uyğun olaraq yerli mütəxəssislər tərəfindən “AzDoc” adlı proqram hazırlanıb. “Elektron imza və Elektron sənəd haqqında” Qanuna və kargüzarlıq təlimatlarına uyğun olan proqram hazırda Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi daxilində tətbiq olunur. Gələcəkdə isə bütün dövlət təşkilatları bu proqramdan istifadə edə bilər. Proqramda sənədləri elektron imza ilə də təsdiqləmək mümkündür.

Dövlət Radiotezliklər İdarəsi bu il “Bakutel - 2018” çərçivəsində ən yeni informasiya-kommunikasiya texnologiyalarının ölkədə tətbiqinə şərait yaradılması üçün müasir radiomonitorinq, mobil rabitə xidmətlərinin müqayisəli analizi və digər bu kimi sistem və texnologiyalarını sərgiləyir. Sərgidə 5G - beşinci nəsil mobil rabitə, süni intellekt kimi texnologiyaların işinə və keyfiyyətinə nəzarət prinsiplərini özündə cəmləyən sistemlər nümayiş olunur.

Dövlət Avtomobil Nəqliyyatı Xidməti avtomobil nəqliyyatı sahəsində dövlət tənzimləməsini, əhalinin və iqtisadiyyatın avtomobil nəqliyyatı ilə daşımalara və digər nəqliyyat xidmətlərinə ehtiyacının təmin olunmasına dövlət nəzarətini həyata keçirən icra hakimiyyəti orqanıdır. Prezident İlham Əliyevin 2008-ci ildə imzaladığı Fərmanla yaradılan bu xidmət avtomobil nəqliyyatı ilə sərnişin və yük daşımalarının inkişafı sahəsində tədbirlər görür, beynəlxalq və ölkədaxili sərnişin və yük daşımalarını yerinə yetirən avtomobil nəqliyyatı subyektləri tərəfindən beynəlxalq norma və qaydalara, həmçinin Azərbaycan Respublikasının normativ hüquqi aktlarına riayət olunmasına nəzarət edir.

Sonra dövlətimizin başçısı və xanımı Azərbaycanda müasir poçtun və rabitənin yaradılmasının 100 illiyinə, eyni zamanda, “Azərbaycan memarlığına” həsr olunan poçt markasını möhürlədilər.

Sərgidə “Azərpoçt” MMC tərəfindən ən çox tələb olunan xidmətlərin göstərildiyi, tam avtomatlaşdırılmış, 24 saat ərzində fasiləsiz fəaliyyət göstərən poçt şöbəsinin prototipi də təqdim olunur. Artıq iki ildir innovativ və texnoloji yeniliklərlə təchiz olunan “Şəbəkə” xidmət mərkəzləri yaradılıb. Növbəti - 9-cu “Şəbəkə” mərkəzinin Beynəlxalq Avtovağzal Kompleksində istifadəyə verilməsi nəzərdə tutulur.

Sonra Prezident İlham Əliyev Rusiyanın “Rossiya-24” televiziya kanalına müsahibə verib.

**Müxbir:** Cənab Prezident, müsahibə verdiyiniz üçün çox sağ olun. Azərbaycanda olmağımızdan çox məmnunuq. İcazənizlə Sizinlə söhbətimizi rus dilində davam edək.

**Prezident İlham Əliyev:** Olar, buyurun. Azərbaycan dilində də çox gözəl danışırsınız.

**- İlk növbədə, demək istərdim ki, mən Azərbaycana birinci dəfə gəlmirəm və Bakıda həmişə nəyinsə dəyişdiyini görmək çox xoşdur. Siz inkişaf edirsiniz, nailiyyətlərlə kifayətlənmirsiniz. Zəhmət olmasa deyin, son zamanlar Azərbaycanda hansı innovasiyaları xüsusilə inkişaf etdirirsiniz? Mən bilirəm ki, siz təkcə neft sektorunu inkişaf etdirmirsiniz, həm də diqqəti qeyri-neft sektoruna yönəldirsiniz. Siz burada nəyi inkişaf etdirmək istərdiniz?**

- Tamamilə doğrudur. Dünyada neftin qiymətinin artıb-azalmasından asılı olmayaraq, Azərbaycan iqtisadiyyatının davamlı tərəqqisi üçün qeyri-neft sektorunun inkişafı bizim uğurla həll etdiyimiz əsas vəzifəmizdir. Buna görə də biznesə yaxşı şəraitin yaradılması məqsədilə infrastruktur layihələrinin inkişafı üçün çox iş görülür. Biznesin həvəsləndirilməsi, sahibkarlara köməklə bağlı xeyli layihələr var. Bütövlükdə investisiya, biznes mühiti Azərbaycanda yaxşılaşır. Dünya Bankının son məlumatlarına, “Doing busines” hesabatına görə Azərbaycan 25-ci yerdədir. Biz bir il ərzində 32 pillə irəliləmişik və bu gün biznes sahəsində dünyanın aparıcı ölkələri sırasındayıq. Buna görə də burada təqdim olunan sahə həm biznes, həm innovasiya, həm də təhsil baxımından çox mühümdür. Bu, bizim üçün prioritet olan sahələrdən biridir və təsadüfi deyil ki, 24 ildir belə bir sərgi keçiririk. İştirak edən şirkətlərin sayı ilbəil artır. Mənə dedilər ki, bu il iştirak edən şirkətlərin sayı 230-dur və çoxlu yerli Azərbaycan şirkətləri var. Yarıdan çoxu Azərbaycan şirkətləridir. Bu, o deməkdir ki, ölkəni inkişaf etdirmək və yeni iş yerləri yaratmaq üçün biz bu istiqamətdə işləməyə hazırıq. Çünki neft sektoru iş yerləri yaratmır.

**- Həm də əbədi deyil.**

- Bəli, əlbəttə. Ona görə biz daim çalışmalıyıq ki, iş yerlərinin yaradılması iqtisadi inkişafın səviyyəsinə uyğun olsun. Azərbaycanda demoqrafik artımı nəzərə almaqla biz çalışmalıyıq ki, dünyaya yeni gələn hər bir Azərbaycan vətəndaşı 20-30 ildən sonra işlə təmin edilmiş olsun.

**- Zəhmət olmasa deyin, turizm sahəsi. Axı Siz turizmi inkişaf etdirmək niyyətindəsiniz. Bildiyimə görə, indi ən çox turist Rusiyadandır. Doğrudur?**

- Bəli, birinci yerdə Rusiyadan gələn turistlərdir. İl hələ ki, yekunlaşmayıb, amma 800 mindən çox rusiyalı gəlib. Rusiyalılar inamla birinci yeri qoruyub saxlayırlar. Bizdə son iki ildə turizmin artımı müşahidə edilib. 2016-cı ildə 22 faiz, 2017-ci ildə 20 faiz artım olub, bu il hələ ki, bilmirik, amma yenə də artım var. Turistləri, ilk növbədə, burada özlərini təhlükəsiz hiss etdikləri şərait cəlb edir. Rusiyalılara gəlincə, düşünürəm ki, onlar özlərini evdəki kimi hiss edirlər. Burada dil səddi yoxdur, onlara münasibət çox yaxşıdır. Bizim ortaq tariximiz də mühüm rol oynayır.

**- Ləziz təamlarınız...**

- Bəli, tamamilə doğrudur. Əlbəttə, təhlükəsizliyin, rahatlığın təmin olunması səviyyəsi, Azərbaycan xalqının qonaqpərvərliyi, eyni zamanda, tarixi abidələr, iqlim - yəni, mən turistlərin Azərbaycana niyə gəldiklərinin səbəbləri barədə çox danışa bilərəm. Düşünürəm ki, rusiyalılar məni eşidəcəklər. Mən məmnunluqla onları ölkəmizə dəvət edirəm. Biz onların gəlişinə həmişə şadıq.

**- Müsahibəyə görə çox sağ olun!**

* * *



Sərgidə “Nafantano” şirkəti də iştirak edir. Bu şirkət artıq 3 ildir fəaliyyət göstərir. Azərbaycan şirkəti olan “Nafantano” onlayn satış həyata keçirir. Şirkət qeyri-adi oyuncaq heyvanlar istehsal edir.

Tibdə rəqəmsal cərrahiyyə erası yüksək dəqiqlik tələb edən əməliyyatlarda xüsusi naviqasiya qurğularından istifadə edir. Azərbaycan Tibb Universitetində alim və mütəxəssislər qrupunun tədqiqatlarında bu sahədə rəqəmsal kompüter texnologiyalarının son nailiyyətlərinə hesablanmış reallıq eynəkləri istifadə olunur. Kompüter proqramı artırılmış reallıq eynəkləri istifadədə cərraha real görüntü ilə yanaşı, gözlə görünməyən anatomik strukturları aşkarlamağa imkan verir.

İqtisadiyyat Nazirliyinin tabeliyində Kiçik və Orta Biznesin İnkişafı Agentliyi də sərgidə təmsil olunur. Burada Agentlik tərəfindən kiçik və orta sahibkarların hüquqlarının qorunması ilə bağlı müraciətlərə online baxılması sistemi təqdim edilir. Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin dəstəyi ilə yaradılan “Sahibkarlara Dəstək Sistemi” sahibkarların hüquqları ilə bağlı müraciətlərə baxılması və onların operativ həlli üçün online platformadır. Məqsəd sahibkarların hüquqlarının müdafiəsinin mükəmməl mexanizmlərinin tətbiqində səmərəliliyin yüksəldilməsi və çevikliyin artırılmasından ibarətdir.

“Bakutel” sərgisi gənc layihəçilərə öz ixtira və proqramları haqqında məlumat vermək üçün də geniş şərait yaradır. Sevindirici haldır ki, bu il sərgidə müxtəlif innovasiya mərkəzlərini təmsil edən rekord sayda - 50-dən artıq startap təmsil olunub. Startaplar öz parlaq innovativ ideyalarını turizm, ekologiya, səhiyyə və maliyyə sektorları üçün təqdim edirlər. Məhsulların əsas hissəsi virtual və artırılmış reallıq texnologiyaları, veb-sayt və mobil tətbiqlərdir.

Belarusun pavilyonunda bu ölkənin şirkətləri innovativ məhsullarını təqdim edir. Ümumilikdə, sərgidə Belarus Respublikasının Rabitə və İnformasiyalaşdırma Nazirliyi, “Beltelekom”, “Belpochta”, “Giprosvyaz”, Milli Elektron Xidmət Mərkəzi, Milli Nəqliyyat Mübadilə Mərkəzi, “Promsviaz”, İnformasiya Təhlükəsizliyi üzrə Tədqiqat İnstitutu, “Software Applied Systems Institute”, Belarus Milli Telekommunikasiya İnstitutu və “Newland” şirkəti iştirak edir.

Digər sərgilərdə olduğu kimi, budəfəki sərgidə də qardaş Türkiyə geniş təmsil olunur. Türkiyənin pavilyonu ilə tanışlıq zamanı məlumat verildi ki, bu ölkədən “Ptt Turkish Post”, “Turk Telekom International”, “Turkcell”, “Türksat” və “Havelsan” şirkətləri innovativ, müasir məhsullarını təqdim edirlər. Bu şirkətlər əsasən süni peyk, rəqəmsal ticarət, mobil operator xidmətləri üzrə ixtisaslaşıb və dünyada qabaqcıl İKT xidmətləri ilə seçilir.

İran da “Bakutel” sərgisinin iştirakçıları sırasındadır. İranın stendində “Telecommunications Infrastructure Company”, “Iranian Space Agency”, “Saymantech Ltd”, “Nasim Telecom”, “Samim Group”, “Faraz”, “Harita” və digər şirkətlər iştirak edir. Ümumilikdə, İran bu sərgidə 25 şirkətlə təmsil olunur. Ziyarətçilərə əsasən internet və elektron cihaz xidmətləri, ağıllı şəhər layihələri təklif edilir.

“Bakutel-2018”də ABŞ da təmsil olunur. Birləşmiş Ştatların stendində Azərbaycanda Amerika Ticarət Palatası ilə yanaşı, “American International Radio”, “Inc. Air”, “Avirtel”, “Parallel Wireless”, “Seabak” və “Transition Networks” şirkətləri məhsullarını təqdim edir.

İtaliya pavilyonunda İtaliya-Azərbaycan Ticarət Palatası, “GAP İtaliya”, “DBA Group” və “GEM Elettronica” şirkətləri məhsullarını təqdim edir. Təqdim olunan məhsullar arasında kibernetika, elektronika, rəqəmsal arxiv kimi bir sıra qabaqcıl texnologiyalar var.

Fransa pavilyonu ilə tanışlıq zamanı məlumat verildi ki, Azərbaycan-Fransa Ticarət və Sənaye Palatası ilə yanaşı, bu ölkədən “Linagora”, “Schneider Electric” və “Thales” şirkətləri də sərgidə təmsil edilir. Bu şirkətlər də öz innovativ məhsullarını təqdim edirlər.

Birləşmiş Ərəb Əmirlikləri də sərgidə təmsil olunur. Əmirliyin PROW və “Xerrow Technologies” şirkətlərinin məhsulları maraqla qarşılanır.

4G texnologiyası əsasında genişzolaqlı mobil internet xidmətləri göstərən “Sazz” internet şirkəti sərgidə ən son texniki nailiyyətlərini təqdim edir. Şirkət yaxın vaxtlarda respublikamızda 5G texnologiyalarının tətbiqinə hazırlaşır. Yenilikçilik ənənələrinə sadiq qalan şirkət mobil internetin son texnologiyası TDD-LTE-ni də nümayiş etdirir. Bu xidmət 3 sahəni - simsiz televiziya, simsiz telefoniya və təhlükəsizlik kameralarını özündə birləşdirir.

1995-ci ildə yaradılan “BestComp Group” şirkəti sistem inteqrasiyası, Data mərkəzi həlləri, layihə həlləri, proqram təminatının yaradılması, distribusiya və digər İT xidmətlərin göstərilməsi sahəsində Cənubi Qafqaz və Orta Asiyanın İKT sektorunun liderlərindən biridir. Şirkət dövlət və özəl sektorda əhəmiyyətli layihələrə imza atır.

Hazırda Bakı Beynəlxalq Avtovağzal Kompleksinin yardımçı sahəsində avtobusların, minik avtomobillərinin, taksilərin, həmçinin sərnişinlərin və turistlərin daha təhlükəsiz, rahat hərəkətinin təmin edilməsi məqsədilə nəqliyyat qovşağı inşa edilir. Bakı Beynəlxalq Avtovağzalı və “Cisco” şirkətinin birgə hazırladığı “Ağıllı Şəhər” pilot layihəsi vasitəsilə yerli və beynəlxalq daşımaların idarə olunmasında nəqliyyat xidmətlərinin keyfiyyətinin artması, xərclərin azaldılması, o cümlədən təhlükəsizliyin yüksək səviyyədə təmin olunması nəzərdə tutulub. Bakı Beynəlxalq Avtovağzalının SAP şirkəti ilə birlikdə təqdim etdiyi ağıllı jiletlər sürücülərin səhhəti ilə bağlı məlumat verir, eyni zamanda, avtobusda yarana biləcək problemlər barədə onlayn rejimdə sürücünü dərhal xəbərdar edir.

Azərbaycan Dövlət Reklam Agentliyinin stendi ilə tanışlıq zamanı məlumat verilib ki, agentlik açıq məkanda reklam daşıyıcılarının yerləşdirilməsi, onlar üzərindəki reklamların hazırlanması və yayımlanması sahəsində vahid tənzimləməni və nəzarəti həyata keçirən qurumdur. Stendə agentliyin bir çox xidmətləri, o cümlədən açıq məkanda reklam daşıyıcılarının elektron qeydiyyatı portalı, reklam daşıyıcılarının kənardan ölçmə cihazı və proqram təminatı, açıq məkanda reklam mühitinin monitorinq və analizini aparan cihaz və proqram təminatı təqdim edilir.

Sərgidə “Azərkosmos” ASC tərəfindən “Peyk layihələrimiz” barədə məlumat verilir. Bu stenddə “Azerspace-1” peykinin nailiyyətlərini əks etdirən infoqrafika, “Azerspace-2” peykinin tutumları vasitəsilə Azərbaycan Respublikasının 600 ucqar kənd məktəbinin peyk interneti ilə təmin olunmasına dair perspektiv layihənin məzmunu, “Azersky” peyki tərəfindən əldə olunan təsvirlər vasitəsilə 2018-ci ildə həyata keçirilən “Azərbaycan Respublikasının meşələrinin monitorinqi layihəsi” və “Bitki örtüyünün xəritələşdirilməsi və məhsuldarlığın proqnozlaşdırılması” layihəsi haqqında məlumat verilir.

Sərgidə “Huawei” şirkəti də məhsullarını təqdim edir. İKT sahəsindəki həllərin dünya üzrə tədarükçüsü olan “Huawei” müştərilərin tələblərinə müvafiq olaraq fasiləsiz innovasiyaların yaradılması istiqamətində çalışır, telekommunikasiya şəbəkələri, korporativ şəbəkələr, abonent qurğuları və bulud hesablamaları sahəsində tərəfdaşlarla yeni əməkdaşlıq imkanları yaradır.

“Microsoft” korporasiyası da artıq çoxdandır ki, sərgidə fəal iştirak edir. 1975-ci ildə təsis olunan bu şirkət proqram təminatı istehsalında dünya lideridir. Korporasiya geniş çeşidli proqram məhsulları hazırlayır və istehsal edir. Ümumilikdə, şirkət İT texnologiyası ilə bağlı ən müasir həll variantlarını nümayiş etdirir. Şirkət ölkəmizdə 2005-ci ildən fəaliyyət göstərir.

Rəqəmsal sahəni təşkil edən texnologiyaların nümayiş olunması və müzakirəsi ilə yanaşı, “Bakutel” həm də yüksək texnologiyaların tətbiqi ilə əyləncəli məhsulların təqdim edildiyi nadir platformadır. Bu il burada “3D Production” şirkətinin rəqəmli muzey layihəsi də həyata keçirilib.

Bu il oyun zonasında “Yüksəklik” kompüter oyunu, milli nağıl qəhrəmanları “Külək” virtual nağılları da təqdim edilir. Oyun zonasında Azərbaycanın görməli yerlərini çap edəcək “3D” printerlər və dronların şousu da nümayiş olunur. Azərbaycanın milli brendi Azərbaycan Robotexnika Mühəndisliyi Akademiyası məktəblilərin dərsdənkənar elmi yaradıcı potensialını inkişaf etdirmək üçün “Mən Pilotam” adlı layihəsini təqdim edir.

Sonra Prezident İlham Əliyev məşhur futbolçu, fransız Robert Pireslə görüşdü. Pires 1998-ci ildə dünya çempionu, 2000-ci ildə isə Avropa çempionu olub. “Arsenal” komandasının liderlərindən olan Pires, həmçinin İngiltərə kubokunun qalibi və İngiltərə çempionudur. FIFA-nın 2000-ci il reytinqinə görə, o, dünyanın ən yaxşı 100 futbolçusundan biri olub. O, həmçinin gələn il Bakıda keçiriləcək Avroliqa finalının səfiridir.

Qeyd edək ki, sərgidə, ilk dəfə olaraq, alman alimlərinin ixtirası olan ultramodern texnologiyası əsasında “RoboKeeper” təqdim olunur. Bu, dünyanın ən sürətli qapıçısı hesab edilir. Hətta bir çox məşhur dünya futbol ulduzları da bu qapıçını məğlub edə bilmir. Robert Pires Prezident İlham Əliyevə Avroliqanın rəsmi topunu təqdim edib.

Sərgi çərçivəsində Azərbaycanda poçt rabitəsinin 200 illik yubileyinə həsr olunmuş muzey də fəaliyyət göstərir.

# Prezident İlham Əliyev ABŞ-ın Müdafiə Nazirliyinin nümayəndə heyətini qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 4-də Amerika Birləşmiş Ştatlarının müdafiə nazirinin müavininin müşaviri xanım Laura Kuperin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Azərbaycanla ABŞ arasında əməkdaşlığın müxtəlif sahələrdə uğurla inkişaf etdiyini bildirib. Prezident İlham Əliyev qarşılıqlı səfərlərin, o cümlədən ABŞ Prezidentinin milli təhlükəsizlik məsələləri üzrə müşaviri Con Boltonun və digər rəsmilərin Azərbaycana səfərlərinin münasibətlərimizin inkişafındakı rolunu qeyd edib. Müdafiə sahəsində əməkdaşlığın məmnunluq doğurduğunu deyən dövlətimizin başçısı enerji təhlükəsizliyi məsələlərinin də ikitərəfli münasibətlərimizin inkişafında böyük önəm daşıdığını bildirib, bu baxımdan ABŞ hökumətinin və şəxsən ABŞ Prezidentinin Cənub Qaz Dəhlizi layihəsinin reallaşmasına verdiyi dəstəyi yüksək qiymətləndirib. Prezident İlham Əliyev Respublika Günü və enerji sahəsində əməkdaşlıq mövzusunda ABŞ Prezidentinin ünvanladığı məktubların da əhəmiyyətini qeyd edib.

Dövlətimizin başçısı NATO çərçivəsində də əlaqələrin inkişafından məmnunluğunu bildirərək, NATO mənzil qərargahına son uğurlu səfərini bu təşkilatla əməkdaşlığın yaxşı göstəricisi kimi dəyərləndirib. Prezident İlham Əliyev qeyd edib ki, Əfqanıstandakı sülhməramlı əməliyyatlarda ölkəmizin iştirakı və orada



Qətiyyətli Dəstək Missiyasında hərbçilərimizin sayının artırılması Azərbaycanın bu ölkədə ümumi sülhyaratma səylərinə verdiyi töhfəsini nümayiş etdirir. Azərbaycanın etibarlı və sabit tərəfdaş olduğunu qeyd edən Prezident İlham Əliyev ölkəmizin, həmçinin ikitərəfli əsasda da Əfqanıstanda həyata keçirilən quruculuq və yenidənqurma işlərinə öz töhfəsini, xüsusilə "ASAN xidmət" təcrübəsinin Əfqanıstanda da tətbiqinə dəstək verdiyini bildirib.

Azərbaycan Prezidenti İlham Əliyev xanım Laura Kuperin səfərinin və ölkələrimiz arasında müdafiə sahəsində məsləhətləşmələrin əməkdaşlığımızın inkişafına əlavə təkan verəcəyinə ümidvar olduğunu vurğulayıb.

Ölkəmizə səfərinin Azərbaycanla ABŞ arasında müdafiə sahəsində əməkdaşlıq və strateji tərəfdaşlıq əlaqələrinin genişlənməsinin davam etdirilməsi məqsədini daşıdığını deyən ABŞ müdafiə nazirinin müavininin müşaviri xanım Laura Kuper qeyd edib ki, Amerika Birləşmiş Ştatlarının rəhbərliyi Azərbaycanla əlaqələrə mühüm əhəmiyyət verir. Xanım Laura Kuper Azərbaycanla ABŞ arasında terrorizm, kütləvi qırğın silahları və narkotik maddələrin yayılmasının qarşısının alınması və ümumilikdə, təhlükəsizlik sahəsində əməkdaşlığı, Azərbaycanın Əfqanıstanda həyata keçirilən sülhyaratma missiyasına dəstəyini və tranzit daşımaları üçün yaratdığı imkanları yüksək qiymətləndirib.

## Prezident İlham Əliyev Türkiyənin nəqliyyat və infrastruktur nazirinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 4-də Türkiyə Respublikasının nəqliyyat və infrastruktur naziri Mehmet Cahit Turhanın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Türkiyənin nəqliyyat və infrastruktur naziri Mehmet Cahit Turhanın XXIV "Bakutel" Azərbaycan Beynəlxalq Telekommunikasiya, İnnovasiya və Yüksək Texnologiyalar Sərgisində böyük heyətlə iştirakından məmnunluğunu bildirib. Prezident İlham Əliyev Azərbaycanla Türkiyə arasında ikitərəfli münasibətlərin bütün sahələrdə, o cümlədən nəqliyyat və infrastruktur sahələrində uğurla inkişaf etdiyini bildirib. Nəqliyyat sahəsində əməkdaşlığımıza toxunan dövlətimizin başçısı ölkələrimizin birgə həyata keçirdiyi layihələrdən danışaraq ötən il istifadəyə verilən Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin təkcə regionda deyil, daha geniş məkanda böyük önəm daşıdığını vurğulayıb. Dövlətimizin başçısı ölkələrimizin rabitə sahəsində də birgə iş birliyi apardıqlarını, Türkiyə şirkətlərinin bu sahədə uzun illər fəaliyyət göstərdiklərini deyib və rabitə sahəsində əməkdaşlığımızın daha da genişləndirilməsi üçün böyük perspektivlərin olduğunu bildirib.

Nazir Mehmet Cahit Turhan Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarını dövlətimizin başçısına çatdırıb. Azərbaycanla Türkiyə arasında əlaqələrin dərin tarixi köklərə malik olduğunu vurğulayan qonaq Azərbaycanda bütün sahələrdə, o cümlədən infrastruktur və şəhərsalmada böyük inkişafın şahidi olduğunu deyib. Mehmet Cahit Turhan bildirib ki, Ulu öndər Heydər Əliyevin ifadəsi ilə desək Azərbaycanla Türkiyə "Bir millət, iki dövlət"dir və Azərbaycanın əldə etdiyi uğurlar Türkiyədə böyük sevinclə qarşılanır. Türkiyəli nazir Azərbaycanla Türkiyənin bundan sonra da birgə uğurlu layihələr həyata keçirəcəklərini məmnunluqla qeyd edib.

Dövlətimizin başçısı Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarına görə minnətdarlığını bildirib, Onun da salamlarını Türkiyə Prezidentinə çatdırmağı xahiş edib.

## Prezident İlham Əliyev İranın rabitə və informasiya texnologiyaları nazirinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 4-də İran İslam Respublikasının rabitə və informasiya texnologiyaları naziri Məhəmməd Cavad Azəri Cəhrominin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Məhəmməd Cavad Azəri Cəhrominin XXIV "Bakutel" Azərbaycan Beynəlxalq Telekommunikasiya, İnnovasiya və Yüksək Texnologiyalar Sərgisində iştirakından və İranın bu tədbirdə geniş sayda şirkətlərlə təmsil olunmasından məmnunluğunu bildirib. Sərginin ənənəvi olaraq keçirildiyini deyən Prezident İlham Əliyev burada İran şirkətlərinin daim iştirak etdiyini vurğulayıb. Azərbaycanla İranın müxtəlif sahələrdə, o cümlədən rabitə və informasiya texnologiyaları sahəsində yaxşı əməkdaşlıq həyata keçirdiyini qeyd edən dövlətimizin başçısı müntəzəm qarşılıqlı səfərlərin, eləcə də nazirlər səviyyəsində təmasların yaxşı səviyyədə olduğunu diqqətə çatdırıb. Dövlətimizin başçısı İKT sahəsində həm ikitərəfli səviyyədə, həm də regional çərçivədə əməkdaşlıq üçün yaxşı imkanlar açıldığını deyib.



Qəbula görə minnətdarlığını bildirən İran İslam Respublikasının rabitə və informasiya texnologiyaları naziri Məhəmməd Cavad Azəri Cəhromi ölkələrimiz arasında İKT sahəsində yaxşı əməkdaşlıq həyata keçirildiyini vurğulayıb. O, əməkdaşlığın təkcə ikitərəfli səviyyədə deyil, eləcə də İran, Azərbaycan, Türkiyə, Rusiya səviyyəsində genişləndirilməsi üçün səmərəli müzakirələrin aparıldığını deyib. Məhəmməd Cavad Azəri Cəhromi keçən il Azərbaycan Prezidenti ilə görüşdən ötən dövr ərzində əməkdaşlığın genişləndirilməsi və layihələrin icrası ilə bağlı çoxlu işlərin görüldüyünü məmnunluqla qeyd edib.

Görüşdə əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.

# ADA Universitetində azərbaycanlı diplomatların Paris Sülh Konfransındakı fəaliyyətindən bəhs edən kitabın təqdimatı olub








Dekabrın 4-də ADA Universitetində Georq Mamuliya və Ramiz Abutalıbovun müəllifliyi ilə "Ə.M.Topçubaşi. Paris arxivi. 1919-1940" (A.M.Topçibaşi. Parijskiy arxiv. 1919-1940) dörd cildlik kitabın təqdimat mərasimi keçirilib.

AZƏRTAC xəbər verir ki, ADA Universitetinin prorektoru Fariz İsmayılzadə bildirib ki, Azərbaycan Prezidentinin 2015-ci ildə Əlimərdan bəy Topçubaşovun 100 illik yubileyi ilə bağlı imzaladığı Sərəncama əsasən ADA Universitetində bundan əvvəl də tədbirlər keçirilib. Həmin tədbirlərdə Topçubaşovun siyasi fəaliyyətindən bəhs olunub. Bu gün təqdimatına toplaşdığımız kitabda Azərbaycanın diplomatiya tarixindən danışılır.

Kitabın həmmüəllifi Georq Mamuliya qeyd edib ki, Paris Sülh Konfransında Azərbaycan diplomatları yalnız öz ölkələrinin deyil, bütün Qafqazın müstəqilliyi və siyasi-mənəvi birliyi uğrunda mübarizə aparıblar. Nəşrdə həmin dövrdə gedən qlobal siyasi və sosial proseslərdən bəhs olunur.

Digər həmmüəllif Ramiz Abutalıbov kitabın nəşrinə göstərdiyi dəstəyə görə Heydər Əliyev Fonduna minnətdarlığını bildirib. Məhz bu dəstək nəticəsində Fransa arxivlərində tarixi faktlarla bağlı araşdırmaların aparılması mümkün olub. O, Fransa arxivlərində Ceyhun Hacıbəyli və Azərbaycanın digər tarixi şəxsiyyətləri ilə bağlı zəngin məlumatların olduğunu da deyib. Sabiq səfir əlavə edib ki, kitab tarixi sənədlər və materiallar əsasında tərtib olunub. Nəşrdə 1918-ci il Azərbaycan diplomatlarının Paris Sülh Konfransındakı fəaliyyətindən bəhs olunub.

AMEA-nın Tarix İnstitutunun şöbə müdiri Sevinc Əliyeva bildirib ki, kitabda Azərbaycan Xalq Cümhuriyyəti tarixinin indiyədək məlum olmayan faktları əksini tapıb. Həmçinin əsərdə 1919-1921-ci illərdə Azərbaycan və Qafqaz xalqlarının azadlıq uğrunda mübarizəsindən danışılır.

Alim qeyd edib ki, 1918-ci il dekabrın 7-də fəaliyyətə başlayan Azərbaycan parlamentinin qərarı ilə Parisə - Versal Sülh Konfransına göndərilən nümayəndə heyəti xalqın iradəsini, onun müstəqillik əzmini ifadə etmək, bu müstəqilliyi dünyaya tanıtmaq və qəbul etdirmək missiyasını öz üzərinə götürmüşdü. Nəşrdə dövlət xadimi və diplomat, Azərbaycan Xalq Cümhuriyyətinin qurucularından biri Əlimərdan bəy Topçubaşovun rəhbərliyi ilə 1918-1920-ci illərdə Parisdə fəaliyyət göstərən Azərbaycan diplomatik missiyası haqqında bir sıra mənbələr aşkara çıxarılıb və ictimaiyyətə çatdırılıb.

Tarixçi Aydın Balıyev vurğulayıb ki, keçmiş sovet dövründə bu arxivlərə çatmaq mümkün deyildi. Müstəqilliyin bərpasından sonra bu proses bir qədər sadələşdi. Bu gün isə Azərbaycan dövlətinin dəstəyi və Ramiz Abutalıbovun yorulmaz səyi nəticəsində 4 cildlik kitab ərsəyə gəlib. Kitabda Paris Sülh Konfransında iştirak edən nümayəndə heyətinin tərkibi ilə bağlı məlumat verilir. Belə ki, 1918-ci il dekabrın 28-də Azərbaycan Xalq Cümhuriyyəti hökuməti parlamentin ağsaqqallar şurasının üzvlərinin iştirakı ilə Paris Sülh Konfransına göndəriləcək nümayəndə heyətinin tərkibini müəyyən edib. Parlamentin sədri Əlimərdan bəy Topçubaşovun rəhbərlik etdiyi nümayəndə heyətinə Məmmədhəsən Hacınski, Əhməd bəy Ağayev, Əkbər Şeyxülislamov, Məhəmməd Məhərrəmov, Miryaqub Mehdiyev və Ceyhun bəy Hacıbəyli daxil idilər.

Milli Məclisin deputatı, tarixçi alim Musa Qasımlı bildirib ki, diplomatlarımızın Paris Sülh Konfransı üçün hazırladıqları Memorandumda Azərbaycanın ərazi bütövlüyünə olan iddialar diplomatik dillə rədd edilir. Memorandumun ən mühüm bölmələri Azərbaycan Xalq Cümhuriyyətinin ərazisi və əhalisinə aid bölmələr idi. Qeyd olunurdu ki, Ermənistanın, Gürcüstanın və İranın konfransa təqdim etdikləri ərazi iddiaları bilavasitə Azərbaycana qarşı yönəldiyindən Cümhuriyyət ərazilərinin tarixən ona məxsus olması, Azərbaycana qarşı iddia qaldırılmış ərazilərdə əhalinin böyük əksəriyyətini ta qədimdən azərbaycanlıların təşkil etməsi tarixi faktlarla əsaslandırılıb.

Tarixçi alim Solmaz Tohidi kitabın əhəmiyyətindən bəhs edərək bildirib ki, bu nəşr Azərbaycan Xalq Cümhuriyyəti diplomatlarının, xüsusilə də Ə.M.Topçubaşovun xidmətlərinin xalqımızın diqqətinə çatdırılmasında əhəmiyyətli mənbədir. Solmaz Tohidi əhəmiyyətli tarixi faktların üzə çıxarılmasına göstərdiyi köməyə görə Georq Mamuliyaya minnətdarlığını bildirib. O deyib ki, Topçubaşovun arxivindən mühüm sənədlərin əldə olunmasında G.Mamuliyanın böyük rolu olub.

Qeyd edək ki, kitabda Azərbaycan nümayəndə heyətinin 1919-cu ildə Amerika Birləşmiş Ştatlarının Prezidenti Vudro Vilsonla görüşündən də bəhs olunur. Görüşdə ABŞ Prezidenti V.Vilsona təqdim olunmuş Memorandumda Azərbaycan Xalq Cümhuriyyətinin yaranma tarixindən, onun birillik inkişaf yolundan, istiqlal uğrunda verdiyi qurbanlardan danışılırdı. V.Vilsondan Azərbaycanın istiqlaliyyətinin tanınması, ABŞ ilə Azərbaycan arasında diplomatik və iqtisadi əlaqələrin qurulması istiqamətində kömək göstərməsi xahiş edilirdi.

ADA Universitetinin rektoru Hafiz Paşayev qeyd edib ki, bu tarixi şəxsiyyətlər böyük ehtirama layiqdirlər. Onlarla bağlı bu cür tədbirlər tək bir universitetdə və tədqiqat institutunda deyil, geniş auditoriyalarda davam etdirilməlidir.

Rektor Georq Mamuliyaya və Ramiz Abutalıbova dəyərli bir kitabı ərsəyə gətirdiklərinə görə minnətdarlığını bildirib, bu cür əhəmiyyətli işin davam etdirilməsinin vacibliyini söyləyib. Mamuliyanın Cümhuriyyət tarixi ilə bağlı böyük məlumatlara malik olduğunu deyən H.Paşayev onun alimlərimizin arxiv sənədlərini əldə etmələrinə dəstək verdiyini söyləyib.

Sonda müəlliflər imzaladıqları kitabları tədbir iştirakçılarına hədiyyə ediblər.

# Məleykə Abbaszadə: Azərbaycanda dövlət qulluğuna qəbul yüksək standartlara uyğun həyata keçirilir



***Müasir müstəqil Azərbaycan Respublikasında dövlət qulluğu sahəsində islahatların əsası Ümummilli lider Heydər Əliyev tərəfindən qoyulub. Belə ki, 2001-ci il sentyabrın 1-də "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanunu qüvvəyə minib. Ulu öndərin siyasi strategiyasını uğurla davam etdirən Prezident İlham Əliyevin 2005-ci il 19 yanvar tarixli Fərmanı ilə Dövlət Qulluğu Məsələləri üzrə Komissiya yaradılıb. Ölkəmizdə dövlət idarəçiliyinin optimallaşdırılması istiqamətində edilən dəyişikliklər nəticəsində Komissiya ləğv olunaraq dövlət qulluğu sahəsində dövlət siyasətinin həyata keçirilməsi funksiyaları Dövlət İmtahan Mərkəzinə tapşırılıb. Dövlətimizin başçısının 2018-ci il 23 noyabr tarixli Sərəncamı ilə "Azərbaycan Respublikasında dövlət qulluğunun inkişafına dair 2019-2025-ci illər üçün Strategiya" təsdiqlənib. Sərəncama əsasən Dövlət İmtahan Mərkəzi Strategiyanın həyata keçirilməsi və icrasının monitorinqi üzrə əlaqələndirici orqan kimi müəyyənləşdirilib. AZƏRTAC bu barədə Dövlət İmtahan Mərkəzinin (DİM) Direktorlar Şurasının sədri Məleykə Abbaszadənin müsahibəsini təqdim edir.***

**- "Azərbaycan Respublikasında dövlət qulluğunun inkişafına dair 2019-2025-ci illər üçün Strategiya" hansı zərurətdən yaranıb?**

- Bununla bağlı iki məsələni diqqətinizə çatdırmaq istərdim. Birincisi, bu Strategiya hərtərəfli inkişaf edən ölkəmizdə dövlət qulluğu sahəsində daha genişmiqyaslı islahatlar yolu ilə dövlət orqanlarının fəaliyyətinin effektivliyini artırmaq və dövlət qulluğu sisteminin müəyyən sahələrini təkmilləşdirmək zərurətindən yaranıb. Strategiya dövlət qulluğu sisteminin inkişaf etdirilməsi məqsədilə əsas hədəfləri və bu hədəflərə çatmaq üçün orta və uzun müddəti əhatə edən çoxşaxəli, ardıcıl, mərhələli tədbirləri müəyyənləşdirən konseptual sənəddir. İkinci məsələ isə ondan ibarətdir ki, Strategiya hazırlanarkən Azərbaycanda dövlət qulluğu sisteminin ümumi təhlili aparılıb, onun güclü və zəif tərəfləri, inkişaf etdirilməsi ilə bağlı imkanlar və təhdidlər müəyyən edilib.

## DÖVLƏT ORQANLARINDA ŞƏFFAF PROSEDURLARLA SEÇİLMİŞ DÖVLƏT QULLUQÇULARI ÇALIŞIR

Məsələn, güclü cəhətlər kimi dövlət qulluğu sahəsində geniş qanunvericilik bazasının mövcudluğunu, Azərbaycan Respublikasının Dövlət Qulluğunu İdarəetmə Şurasının və dövlət qulluğu sahəsində tənzimləməni həyata keçirən qurumun fəaliyyət göstərməsini, vətəndaşların dövlət qulluğuna yüksək marağı olmasını, dövlət qulluğuna qəbulun və dövlət qulluğu vəzifələrinin tutulmasının yüksək standartlara uyğun həyata keçirilməsini, dövlət orqanlarında şəffaf prosedurlarla seçilmiş, yüksək təhsil səviyyəsinə malik kifayət qədər dövlət qulluqçusunun çalışmasını qeyd etmək olar.

## LAKİN HƏM VƏZİFƏ, HƏM DƏ KARYERA MODELLƏRİNƏ ƏSASLANAN DÖVLƏT QULLUĞU SİSTEMİ ELEMENTLƏRİ MÖVCUDDUR

Dövlət qulluğu ilə bağlı qanunvericilikdə bəzi tənzimlənməyən məsələlərin mövcudluğu, dövlət qulluqçusunun xidməti fəaliyyətinin qiymətləndirilməsinin nəticələri ilə dövlət qulluğunun digər elementləri arasında, dövlət qulluğu və onun xüsusi növləri arasında qarşılıqlı əlaqələrin olmaması, dövlət orqanlarında dövlət qulluğu və insan resurslarının idarə edilməsi üzrə peşəkarlıq səviyyəsinin aşağı olması, şəffaf prosedurların tətbiq edilmədiyi vəzifələrə işə qəbulda neqativ hallara yol verilməsi, həm vəzifə, həm də karyera modellərinə əsaslanan dövlət qulluğu sistemi elementlərinin mövcudluğu zəif tərəflərdir.

## DÖVLƏT QULLUĞU SİSTEMİNİN İNKİŞAFI: İMKANLAR VƏ TƏHDİDLƏR

Dövlət orqanları rəhbərlərinin dövlət qulluğuna, bu sahədə qanunvericiliyin düzgün tətbiqinə, habelə insan resurslarının idarə edilməsinə lazımi səviyyədə diqqət yetirməməsini, dövlət qulluğu ilə bağlı bir sıra yeniliklərin tətbiqi üçün dövlət orqanlarının müvafiq struktur bölmələrinin potensialının aşağı səviyyədə olmasını, dövlət qulluğu haqqında qanunvericiliyin bəzi normalarının tam şəkildə tətbiq edilməməsini dövlət qulluğu sisteminə təhdidlər kimi səciyyələndirmək olar. Onu da deməliyəm ki, Strategiya hazırlanarkən aparılan təhlillər dövlət qulluğu sistemini inkişaf etdirmək imkanlarını üzə çıxardı. Bu imkanlar sırasında dövlət qulluğu sahəsində islahatların həyata keçirilməsi üzrə təcrübənin, nailiyyətlərin və peşəkarların olmasını, dövlət qulluğu sahəsində reallaşdırılmış beynəlxalq layihələrin və onların nəticələrinin ölkəmizin dövlət qulluğu sistemində tətbiqi mexanizmlərinin mövcudluğunu, Dövlət Qulluğu Məcəlləsinin layihəsinin hazırlanması işinin müəyyən hissəsinin yerinə yetirilməsini, Dövlət Qulluqçularının Reyestrinin digər qurumların informasiya sistemlərinə inteqrasiyası nəticəsində dövlət qulluğunun idarəetmə aləti kimi perspektivlərinin genişliyini vurğulamaq mümkündür.

## STRATEGİYAYA ƏSASƏN TƏTBİQ EDİLƏCƏK MODELLƏR

Strategiyanın əsas məqsədi dövlət qulluğu sistemində idarəçiliyin təkmilləşdirilməsi, dövlət orqanlarının kadr potensialının inkişaf etdirilməsi, yüksək mənəvi və etik dəyərləri əsas tutan, bilik, bacarıq və müsbət şəxsi keyfiyyətləri ilə seçilən dövlət qulluqçuları korpusunu formalaşdırmaqla dövlət orqanlarının fəaliyyətində səmərəliliyin artırılmasıdır.

**- Dövlət qulluğunu inkişaf etdirmək üçün Strategiya hansı istiqamətləri nəzərdə tutur?**

- Strategiya dövlət qulluğu sisteminin inkişafı məqsədilə institusional quruculuq, kadr siyasəti, dövlət qulluqçularının rotasiyası, onların peşəkarlığının və fəaliyyətinin səmərəliliyinin artırılması, dövlət qulluğunda səriştə (kompetensiya) və mütərəqqi motivasiya (həvəsləndirmə) modellərinin tətbiqi, dövlət qulluğunun informasiya təminatının yaxşılaşdırılması sahəsində və bir sıra əlaqəli sahələrdə əsaslı islahatlar aparılmasını nəzərdə tutur.

**- Dövlət qulluğunda səriştə modelinin tətbiqi barədə bir qədər ətraflı məlumat verərdiniz...**

- Artıq dünyanın bir çox qabaqcıl ölkələrində dövlət qulluğuna qəbulda dövlət qulluqçularının fəaliyyətinin qiymətləndirilməsində səriştə modeli çox geniş tətbiq edilir. Bu modelin tətbiqində beynəlxalq təcrübədə ən aparıcı alət kimi Qiymətləndirmə Mərkəzindən istifadə olunur. Azərbaycanda da bu modelin tətbiqi, vəzifələr üzrə yalnız formal tələbləri deyil, həmin vəzifələrin tutulması üçün zəruri bacarıqları, onların ölçülməsi və qiymətləndirilməsi mexanizmləri və bunun üçün qiymətləndirmə alətləri kompleksinin (test, praktiki tapşırıq, müsahibə və s.) yaradılması, habelə səriştə modelinin dövlət qulluqçularının fəaliyyətinin qiymətləndirilməsində tətbiqi ilə bağlı təkliflər hazırlanması nəzərdə tutulur. Onu da deyim ki, Qiymətləndirmə Mərkəzi alətinin tətbiqi üzrə DİM tərəfindən həyata keçirilən Tvinninq layihəsi çərçivəsində ilkin təkliflər hazırlanıb.

**- Dövlət qulluqçularının fasiləsiz peşəkar inkişafı necə təmin ediləcək?**

- Qeyd edim ki, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası dövlət qulluqçularının peşəkar inkişafı sahəsində aparıcı təşkilatdır. Bu akademiyanın, eləcə də dövlət orqanlarının tədris mərkəzlərinin fəaliyyətinin təkmilləşdirilməsi, dövlət qulluqçularının əlavə təhsilinin maliyyə təminatı sisteminin formalaşdırılması, onların təlim tələbatlarının öyrənilməsi və nəticədə təlim strategiyasının hazırlanması ilə bağlı işlərin görülməsi nəzərdə tutulur.

**- Siz söhbətimizin əvvəlində dövlət qulluğunun informasiya təminatının yaxşılaşdırılması sahəsində islahatlar aparılmasının nəzərdə tutulduğunu qeyd etdiniz...**

- Strategiyada informasiya texnologiyalarının nailiyyətlərindən dövlət qulluğunun idarə edilməsində də geniş tətbiq olunması ilə bağlı lazımi tədbirlərin görülməsi əsas məqsədlərdən biri kimi qarşıya qoyulub. Bu məqsədlə Dövlət Qulluqçularının Reyestrinin təkmilləşdirilməsi, bu Reyestrlə digər dövlət orqanlarının məlumat bazaları arasında qarşılıqlı informasiya mübadiləsinin təmin edilməsi, dövlət qulluğu sahəsində statistik topluların hazırlanması və ümumilikdə dövlət qulluğu sahəsində digər fəaliyyətlərin elektronlaşdırılması ilə bağlı müvafiq işlərin görülməsi nəzərdə tutulur.

## DAHA BİR SƏNƏDƏ - DÖVLƏT QULLUĞU MƏCƏLLƏSİNƏ EHTİYAC VAR

**- Dövlət qulluğuna dair qanunvericiliyin təkmilləşdirilməsi və icrasına nəzarət məsələləri öz həllini necə tapacaq?**

- Azərbaycanın dövlət qulluğu sisteminin təhlili haqqında danışarkən onun güclü tərəflərindən biri kimi zəngin qanunvericilik bazasını qeyd etdim. Amma bir önəmli məqamı da unutmaq olmaz: qanunvericiliyin bir sıra normalarının tam tətbiq edilməməsi dövlət qulluğunun inkişafında əsas təhdid hesab edilən məsələlərdəndir. Bu məsələnin həlli üçün dövlət qulluğuna dair qanunvericiliyin icrasına nəzarət mexanizmlərinin tərtib olunması, aşkarlanmış pozuntu və çatışmazlıqların təhlili əsasında dövlət qulluğuna dair qanunvericiliyin təkmilləşdirilməsi istiqamətində təkliflərin hazırlanması nəzərdə tutulur. Eyni zamanda, dövlət qulluğuna dair normativ hüquqi aktların çoxluğu və müəyyən pərakəndəliyi onların düzgün tətbiqində çətinlik yaradır. Odur ki, bu sahədə vahid qanunvericilik aktının - Azərbaycan Respublikasının Dövlət Qulluğu Məcəlləsinin qəbul edilməsi ilə bağlı müvafiq tədbirlər görüləcək.

**- Dövlət orqanlarının struktur bölmələrinin və dövlət qulluqçularının fəaliyyətinin qiymətləndirilməsi istiqamətində hansı işlər görüləcək?**

- Bu məsələ ilə bağlı da təkliflər hazırlanması nəzərdə tutulur. Müvafiq mexanizmdə qiymətləndirmənin nəticələri həmin bölmələrin rəhbərlərinin və əməkdaşlarının fəaliyyətinin qiymətləndirilməsi nəticələri ilə müqayisə edilməli və beləliklə, qiymətləndirmədə obyektivlik və peşəkarlıq təmin olunmalıdır. Azərbaycanda dövlət qulluqçularının xidməti fəaliyyətinin qiymətləndirilməsi mövcud olsa da, bu sistem formal xarakter daşıyır və dövlət qulluğunun digər elementləri ilə əlaqələndirilmir. Buna görə də xidməti fəaliyyətin qiymətləndirilməsinin əhəmiyyətinin artırılması, qiymətləndirmə nəticələrinin əməkhaqqı, qulluqda yüksəliş, rotasiya, əlavə təhsil və dövlət qulluğunun digər elementləri ilə əlaqələndirilməsi istiqamətlərində, o cümlədən bu istiqamətlər üzrə müasir metodlardan (özünüqiymətləndirmə, müsahibə, daxili komissiya, 360 dərəcə metodu) geniş istifadə edilməsi üçün konkret işlərin görülməsi planlaşdırılır.

## DÖVLƏT QULLUĞUNDA ETİK MÜVƏKKİL VƏZİFƏSİ...

**- Dövlət qulluğunun inkişafına dair Strategiyanın məqsədlərindən biri yüksək mənəvi və etik dəyərləri əsas tutan dövlət qulluqçuları korpusunu formalaşdırmaqdır. Deməli, onların etik davranış qaydalarının tətbiqi məsələlərinin təkmilləşdirilməsi də vacibdir.**

- Dövlət qulluqçularının etik davranışı korrupsiyaya qarşı mübarizədə əsas alətlərdən biri olmaqla, dövlət qulluğuna ictimai etimadın və vətəndaş məmnunluğunun artırılmasında mühüm rol oynayır. Dövlət qulluqçuları vəzifə funksiyalarının icrası zamanı bu qaydaları və müəyyən edilmiş dəyərləri rəhbər tutmalı, dövlət orqanlarının rəhbərləri davranışları ilə tabeliyindəki dövlət qulluqçularına nümunə olmalı, etik qaydaların tələblərinə riayət etməlidirlər. Dövlət qulluqçularının, xüsusilə də rəhbər vəzifəli dövlət qulluqçularının və bu sahədə yeni çalışan şəxslərin biliklərinin artırılması məqsədilə mütəmadi maarifləndirmə işlərinin, təlimlərin keçirilməsi planlaşdırılır. Bununla yanaşı, dövlət orqanlarında etik davranış qaydalarının tətbiqi, bu sahədə maarifləndirmə və mübahisələrin həllinə məsul olan etik müvəkkil vəzifəsinin təsis edilməsi ilə bağlı təkliflərin hazırlanması nəzərdə tutulur.

**- Strategiyanın həyata keçirilməsinin fəaliyyət planı barədə də məlumat verməyinizi xahiş edirik.**

- Strategiyanın icrası 2019-2021-ci və 2022-2025-ci illəri əhatə edən iki fəaliyyət planının həyata keçirilməsi ilə təmin ediləcək. Fəaliyyət planları Strategiyada nəzərdə tutulan əsas inkişaf istiqamətləri üzrə müvafiq hədəfləri, həmin hədəflərə çatmaq üçün tələb olunan konkret tədbirləri, icraçıları və müddətləri özündə əks etdirir. Strategiyada nəzərdə tutulan tədbirlərin icra olunmasında müxtəlif komponentlər üzrə DİM ilə yanaşı, digər dövlət orqanları da (Nazirlər Kabineti, Ədliyyə Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, İqtisadiyyat Nazirliyi, Maliyyə Nazirliyi, Dövlət Statistika Komitəsi, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi, Dövlət İdarəçilik Akademiyası, Korrupsiyaya Qarşı Mübarizə üzrə Komissiya) müəyyənləşdirilib. Fəaliyyət planlarında nəzərdə tutulan tədbirlərin yerinə yetirilməsi barədə məlumatlar ildə bir dəfə ümumiləşdirilmiş hesabat formasında Azərbaycan Respublikasının Prezidentinə təqdim edilməlidir.

## DÖVLƏT İMTAHAN MƏRKƏZİ TƏKLİF EDİR

**- Strategiyada qeyd edildiyi kimi, dövlət qulluğu sisteminin zəif cəhətlərindən biri dövlət qulluğu ilə bağlı qanunvericilikdə bəzi tənzimlənməyən məsələlərin mövcudluğudur. Dövlət İmtahan Mərkəzi bu məsələ ilə bağlı hansı işləri planlaşdırır?**

- Dövlət İmtahan Mərkəzi "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikasının Qanunu layihəsinə dair təkliflər hazırlayıb. Qeyd edim ki, qüvvədə olan Qanuna əsasən dövlət qulluğuna qəbul üzrə müsabiqələrin test imtahanı mərhələsindən müvəffəqiyyətlə keçən şəxslərə bunu təsdiqləyən və 5 il müddətində qüvvədə olan sertifikat verilir. Həmçinin qanun müvafiq sertifikat almış namizədə müsahibədə iştirak edə biləcəyi vəzifələrin sayında məhdudiyyət qoymur. Bir neçə vəzifə seçimi etmiş namizədin müvafiq müsahibələrdə iştirakının təmin edilməsi üçün DİM tərəfindən zəruri şərait yaradılır. Amma bir sıra hallarda namizədlər bundan sui-istifadə edirlər. Bəzi statistik məlumatları nəzərinizə çatdırım. Bu il ərzində bir namizəd 71 vəzifəyə qəbulla bağlı müsahibədə iştirak üçün qeydiyyatdan keçib, həmin müsahibələrin 9-da iştirak edib və heç birində uğur qazana bilməyib. Yaxud digər bir namizəd 69 vəzifənin müsahibəsində iştirak üçün qeydiyyatdan keçsə də, müsahibələrin 6-da iştirak edib və onların yalnız ikisində uğur qazanıb. Bu kimi hallar yetərincədir. Namizədlərin daha çox vəzifə üzrə müsahibələrdə iştiraka can atmasını iki səbəblə əlaqələndirmək olar: namizədlər müsahibələrdə iştirak etməklə müsahibə təcrübələrini artırmaq istəyir; namizədlər yüksək rəqabəti nəzərə alaraq, dövlət qulluğu vəzifəsinə təyin olunmaq şanslarını artırmaq üçün daha çox müsahibədə iştirak etməyi məqsədəuyğun sayır.

## SERTİFİKATA MALİK ŞƏXSLƏRİN TƏQVİM İLİ ƏRZİNDƏ MÜSAHİBƏDƏ İŞTİRAK SAYININ MƏHDUDLAŞDIRILMASI

Müsahibələrin keçirilməsi istiqamətində müvafiq qrafiklər tərtib olunur, həm DİM, həm də dövlət orqanları tərəfindən kifayət qədər işçi qüvvəsindən və maddi resurslardan istifadə edilir. Buna görə də DİM sertifikata malik şəxslərin təqvim ili ərzində müsahibədə iştirak sayının məhdudlaşdırılması təklifini irəli sürüb. Bu halda namizədlər müsahibələrə daha ciddi yanaşar, beləliklə də DİM və dövlət orqanları tərəfindən müsahibələrin keçirilməsinə sərf edilən resurslardan daha səmərəli istifadə olunar.

## EHTİYAT KADRLARLA BAĞLI MƏHDUDİYYƏTLƏRİN ARADAN QALDIRILMASI

Digər təklifimiz müsabiqədən müvəffəqiyyətlə keçmiş, lakin vakant dövlət qulluğu vəzifəsinə təyin edilməyərək ehtiyat kadrlar siyahısına daxil edilmiş namizədlərlə bağlıdır. Qüvvədə olan qanunvericiliyə əsasən, həmin şəxslər iki il müddətində müsahibəsindən uğurla keçdiyi dövlət orqanının ehtiyat kadrlar siyahısında saxlanılır və bu müddət ərzində yalnız həmin dövlət orqanında analoji vakant vəzifəyə təyin edilə bilər. DİM-in təklifində bu məhdudiyyətin aradan qaldırılması və ehtiyat kadrlar siyahısında olan şəxslərin həmin dövlət orqanı ilə yanaşı, digər dövlət orqanlarında da analoji vakant vəzifəyə təyin edilməsi nəzərdə tutulur.

## ELMİ DƏRƏCƏSİ OLAN ŞƏXSLƏRİN MÜSABİQƏNİN TEST MƏRHƏLƏSİNDƏN AZAD EDİLMƏSİ

Təkliflərdən biri də dövlət qulluğu vəzifəsinə uyğun elm sahəsi üzrə elmlər doktoru və fəlsəfə doktoru elmi dərəcəsi olan şəxslərin test mərhələsindən azad olunması, onlara müsabiqənin müsahibə mərhələsində və ümumi müsahibədə iştirak hüququ verilməsidir. Bununla yanaşı, dövlət qulluğunun xüsusi növündə qulluq (xidmət) keçən xüsusi (hərbi, diplomatik) rütbəli şəxslərə, həmin dövlət orqanlarında xüsusi (hərbi, diplomatik) rütbəli vəzifələrdə azı 5 il çalışmış şəxslərə və dövlət təşkilatlarında rəhbər vəzifələrdə azı 10 il iş stajı olan şəxslərə ümumi müsahibədə iştirak hüququ verilməsi təklifi də irəli sürülüb.

## ÜMUMİ MÜSAHİBƏDƏN MÜVƏFFƏQİYYƏTLƏ KEÇMİŞ NAMİZƏDLƏRİN TƏYİNATI

Digər təklif ümumi müsahibədən müvəffəqiyyətlə keçmiş namizədlərin təyinatı məsələsi ilə bağlıdır. Bu namizədlərdən birinin vakant dövlət qulluğu vəzifəsinə mütləq qaydada təyin edilməsi, vakant vəzifəyə təyin edilməmiş namizədlərin isə ehtiyat kadr kimi saxlanılması barədə müvafiq təklif verilib.

**- Məleykə xanım, əhatəli və maraqlı müsahibəyə görə minnətdarıq.**

# Tarixçi-alimin növbəti kitabı Cümhuriyyət irsinin tədqiqinə həsr olunub

*"Azərbaycan Xalq Cümhuriyyəti işığında (1918-1920). Araşdırmalar, məqalələr" kitabı işıq üzü görüb*




Prezident İlham Əliyevin müvafiq Sərəncamı ilə Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi ölkəmizdə silsilə tədbirlərə qeyd edilməkdədir. Ölkə başçısı tərəfindən elan olunan "Azərbaycan Xalq Cümhuriyyəti İli" çərçivəsində cümhuriyyət irsinin dərindən öyrənilməsi və təbliği sahəsində də mühüm işlər görülür. Bu günlərdə Prezident Kitabxanasının şöbə müdiri, tarix üzrə fəlsəfə doktoru, Dövlət mükafatı laureatı Nazim Mustafanın "Azərbaycan Xalq Cümhuriyyəti işığında (1918-1920). Araşdırmalar, məqalələr" kitabının işıq üzü görməsi cümhuriyyət irsinin tədqiqi baxımından dəyərli töhfə hesab edilə bilər.

AZƏRTAC xəbər verir ki, kitabda müəllifin Azərbaycan Xalq Cümhuriyyəti dövrünə aid tədqiqatlarının nəticəsi olaraq ərsəyə gələn elmi məqalələrinin, beynəlxalq konfranslarda etdiyi məruzələrinin və mətbuat səhifələrində işıq üzü görmüş bir sıra məqalələrinin mətnləri toplanılıb.

Kitabda əksini tapan materiallar "Elmi məqalələr" və "Mətbuatda dərc edilən məqalələr" başlıqları altında yerləşdirilib. Müəllifin məqalələri əsasən zəngin arxiv sənədləri, AXC dövründə dərc edilən materiallar və ayrı-ayrı tədqiqat əsərlərinə, xüsusən də erməni müəlliflərinin etiraflarını özündə əks etdirən kitablara istinadən qələmə alınıb.

Müəllif "1918-1920-ci illərdə İrəvan quberniyasında erməni təcavüzünə qarşı azərbaycanlıların mübarizəsi tarixindən" sərlövhəli araşdırmasında azərbaycanlıların soyqırımı tarixinin tədqiqi ilə yanaşı, müqavimət hərəkatının da ciddi şəkildə öyrənilməsinin tarixşünaslığın problemi kimi önə çəkilməsinin vacibliyini göstərir.

Nazim Mustafanın tədqiqatlarında yaxından bələd olduğu Qərbi Azərbaycan və Şərqi Anadolunun tarixi-coğrafiyası və orada cərəyan edən hadisələrin işıqlandırılması mühüm yer tutur. Onun Azərbaycan arxivlərində saxlanılan sənədlər əsasında qələmə aldığı "1918-1920-ci illərdə Qars vilayətində ermənilərin törətdikləri soyqırımı" məqaləsi təkcə Azərbaycan oxucuları üçün deyil, eyni zamanda, Türkiyə tarixçiləri üçün də yeni-yeni faktların elmi-tədqiqat dövriyyəsinə cəlb edilməsindən xəbər verir.

Tədqiqatçının bir problem kimi araşdırdığı qaçqınlar problemi XX əsrin əvvəllərində olduğu kimi, bu gün də aktualdır və müstəqil Azərbaycanın əsas problerimdəndir. Onun "Azərbaycan Xalq Cümhuriyyəti dövründə milli-ərazi münaqişələri və qaçqınlar problemi" başlıqlı araşdırması bu mövzuda aparılan ilk tədqiqat nümunələrindəndir.

"Azərbaycan Xalq Cümhuriyyəti dövründə sülh danışıqları" mövzusunda araşdırmasında müəllif arxiv materiallarına istinadən Cənubu Qafqazda yeni yaranan dövlətlər arasında əsasən milli-ərazi mübahisələrinin həll edilməsi məqsədilə keçirilən konfransları xronoloji ardıcıllıqla işıqlandırır. Məqalədən aydın olur ki, hazırda olduğu kimi, ötən əsrin əvvəllərində də ermənilər Azərbaycana qarşı ərazi iddiasını silah gücünə reallaşdırmaq yolunu tutmuşdur. Azərbaycan tərəfinin 1919-cu ilin noyabrında Tiflisdə keçirilən sülh konfransında imzalanan sazişin şərtlərinə əsasən Zəngəzur cəbhəsindən öz qoşunlarını geri çəkməsi fürsətindən istifadə edən Ermənistan ordusu, bu gün Azərbaycanı Naxçıvandan ayrı salan Zəngəzur bölgəsini tamamilə işğal etmişdir.

Müəllifin "1918-1920-ci illərdə ermənilərin Cənubi Qafqazda və Qars vilayətində ruslara qarşı törətdikləri terror və qırğınlar" mövzusunda araşdırması bu gün özlərini mədəni xalq kimi dünya ictimaiyyətinə təqdim etməyə çalışan ermənilərin əsl simasını ortaya qoyur.

Nazim Mustafanın "1918-1920-ci illərdə Ermənistanın xüsusi xidmət orqanlarının Türkiyə və Azərbaycan əleyhinə fəaliyyətləri" mövzusunda araşdırması da bu istiqamətdə aparılan ilk tədqiqatlardandır.

Müəllifin "Tariximizin şanlı və ibrətamiz səhifəsi" başlıqlı məqaləsi Xalq Cümhuriyyəti Parlamentinin yaranmasının 100 illiyinə həsr edilib.

Azərbaycanın Ermənistandakı daimi nümayəndəliyinin fəaliyyəti Nazim Mustafanın əsas tədqiqat obyektlərindəndir. Bu məsələ ilə bağlı müəllifin "Xalq Cümhuriyyəti dövründə Azərbaycanın Ermənistandakı daimi nümayəndəliyinin fəaliyyəti", "Azərbaycanın Ermənistandakı ilk diplomatik nümayəndəsi Məhəmməd xan Təkinski", "Diplomatik nümayəndə Əbdürrəhim bəy Haqverdiyevə qarşı Ermənistan hökumətinin həyata keçirdiyi cinayətin təfsilatı" və "Diplomat Teymur bəy Makinski" mövzularında araşdırmaları kitabda öz əksini tapır.

Müəllifin "Xalq qəzeti"ndə dərc etdirdiyi "Fətəli xan Xoyski", "Nəsib bəy Yusifbəyli", "Əlimərdan bəy Topçubaşov" sərlövhəli məqalələrində Xalq Cümhuriyyətinin qurucularının həyat və fəaliyyətləri işıqlandırılır.

1919-cu ildə Şərqi Anadoluda qurulan ilk demokratik cümhuriyyətin - Cənub-Qərbi Qafqaz Cümhuriyyətinin və onun qurucularının fəaliyyətinin işıqlandırılması, Azərbaycan Xalq Cümhuriyyəti ilə onların əlaqələri Nazim Mustafanın tədqiqat mövzularındandır. Oxuculara təqdim olunan bu kitabda həmin mövzu ilə bağlı müəllifin "Cənub-Qərbi Qafqaz Cümhuriyyəti", "Anadoluda ilk cümhuriyyətin qurucusu İbrahim bəy Cahangirov (Cihangiroğlu)", "Hacı Abbas oğlu Kərbəlayi Məhəmməd ağa" başlıqlı məqalələri öz əksini tapır.

Ümumiyyətlə, "Azərbaycan Xalq Cümhuriyyəti işığında (1918-1920). Araşdırmalar, məqalələr" kitabına müəllifin elmi jurnallarda, "Xalq qəzeti" və "Azərbaycan" qəzetlərində dərc edilən 22 məqaləsi daxil edilib.

Kitab Azərbaycan Xalq Cümhuriyyətinin qurucularının əziz xatirəsinə həsr olunub.

# Azərbaycan ilə ABŞ arasında hərbi-texniki əməkdaşlığın daha da genişləndirilməsi məsələləri müzakirə edilib



Dekabrın 4-də Azərbaycan Respublikasının müdafiə naziri, general-polkovnik Zakir Həsənov ölkəmizdə səfərdə olan ABŞ müdafiə nazirinin müavininin müşaviri xanım Laura Kuperin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Zakir Həsənov ölkələrimiz arasında hərbi əlaqələrin uğurla inkişaf etdiyini vurğulayaraq, Azərbaycan ilə ABŞ arasında hərbi əməkdaşlıq, o cümlədən hərbçilərimizin NATO proqramları çərçivəsində fəaliyyəti, sülhməramlılarımızın Alyansın Əfqanıstanda həyata keçirdiyi "Qətiyyətli dəstək" qeyri-döyüş missiyasında iştirakı haqqında ətraflı məlumat verib. Nazir qeyd edib ki, hər iki ölkə hərbi, hərbi-texniki və hərbi təhsil sahələrində əməkdaşlığın daha da genişləndirilməsində maraqlıdır. ABŞ-ın qabaqcıl hərbi təhsil müəssisələrində təhsil alan zabitlərimizin sayının artırılması qərara alınıb.

Regiondakı hərbi-siyasi vəziyyət barədə də qonağa məlumat verən general-polkovnik Z.Həsənov Ermənistanın Cənubi Qafqazda sabitliyə təhlükə yaratdığını, beynəlxalq hüququn norma və prinsiplərinə məhəl qoymadan Azərbaycan torpaqlarını işğal altında saxladığını xüsusi vurğulayıb.

L.Kuper ABŞ hökumətinin Azərbaycan ilə təhlükəsizlik və hərbi sahələrdə əməkdaşlığın genişləndirilməsi və gücləndirilməsində maraqlı olduğunu vurğulayıb. Azərbaycanın Əfqanıstandakı əməliyyatlara verdiyi töhfəni, o cümlədən sülhməramlılarımızın peşəkarlığını yüksək dəyərləndirən L.Kuper ABŞ-ın müdafiə naziri Ceyms Mettisdən sitat gətirərək bildirib ki, **"Əfqanıstanda bu gün əldə edilən uğurlar Azərbaycanın güclü dəstəyi olmadan mümkün olmazdı".**

Qonaq ölkəmizin terrorizmlə mübarizədə iştirakını və sülhməramlılarımızın Əfqanıstandakı nümunəvi xidmətini də xüsusi qeyd edib.

Görüşdə Azərbaycan ilə ABŞ arasında hərbi əlaqələrin inkişaf perspektivləri, o cümlədən təhlükəsizlik və müdafiə sahələrində əməkdaşlıq, hərbi təhsil və tibb hazırlığı məsələləri də müzakirə olunub.

# Azərbaycan Hotellər Assosiasiyasının Birinci Baş Assambleyası keçirilib

## *Azərbaycan turizm sahəsində fəaliyyət göstərən beynəlxalq təşkilatlara üzv olacaq*






Dekabrın 4-də Bakıda Azərbaycan Hotellər Assosiasiyasının Birinci Baş Assambleyası keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbirdə Azərbaycan Hotellər Assosiasiyasının icraçı direktoru Günay Sağlam assosiasiyanın qeyri-hökumət təşkilatı kimi Azərbaycan hotellərinin maraqlarını təmsil və təşviq etdiyini bildirib. Eyni zamanda, Azərbaycan Hotellər Assosiasiyasının təşkilati strukturu, nizamnaməsi, məqsədləri və gələcək fəaliyyəti haqqında ətraflı məlumat verib.

Bildirilib ki, Dövlət Turizm Agentliyi və Azərbaycan Turizm Bürosunun dəstəyi ilə fəaliyyət göstərən Azərbaycan Hotellər Assosiasiyası ölkədə hotelçilik sənayesini inkişaf etdirmək məqsədini daşıyır.

Tədbirdə çıxış edən Dövlət Turizm Agentliyinin sədri Fuad Nağıyev deyib ki, bugünkü görüş bizim üçün çox əhəmiyyətlidir. Azərbaycan Hotellər Assosiasiyası bu sahənin iştirakçılarını birləşdirib və birinci Baş Assambleyasını təşkil edib. **"Bildiyiniz kimi, turizm ölkənin əsas prioritet sahələrindən biridir. Son illərdə bu sahədə kifayət qədər işlər görülüb, Azərbaycanın turizm imkanlarının tanıdılması üçün mühüm addımlar atılıb. Ancaq ölkənin turizm sahəsində bəzi problemlərin mövcud olması da hər kəsə məlumdur. Dövlət Turizm Agentliyinin qarşısında mövcud problemləri aradan qaldırmaq, turizmi daha da inkişaf etdirmək kimi vəzifə durur. Biz bu məsuliyyətin fərqindəyik və öz işimizi Prezident İlham Əliyevin iqtisadiyyatın inkişafı istiqamətində həyata keçirdiyi siyasətə uyğun olaraq qurmuşuq. Fürsətdən istifadə edib, ölkə turizminin inkişafında bizə hər zaman dəstək verdiyi üçün Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya öz təşəkkürümüzü bildiririk",** - deyə F.Nağıyev vurğulayıb.

Turizmin inkişafının bir-biri ilə sıx bağlı olan bir çox sahənin birgə fəaliyyətindən asılı olduğunu söyləyən Dövlət Turizm Agentliyinin sədri deyib ki, bunların içərisində hotelçilik əsas yerdə durur. Bugünkü tədbirin də əsas məqsədi hotelçilik sənayesi nümayəndələrini bir araya gətirərək yeni yaradılmış Azərbaycan Hotellər Assosiasiyası barəsində məlumat verməkdir. Azərbaycan Hotellər Assosiasiyası hotelçilik sahəsində mövcud potensialı inkişaf etdirmək, xidmət səviyyəsinin keyfiyyətini artırmaq üçün bu sahənin nümayəndələrini bir araya toplayan platforma rolunu oynayacaq. Əlbəttə, hotelçilik sahəsində gözəçarpan ən əsas amil xidmət səviyyəsinin keyfiyyətidir. Bu sahədə problemlər mövcuddur və bu problemlərin həlli istiqamətində işlər görülür.

Fuad Nağıyev deyib: **"İxtisaslı kadrların hazırlanması və onların peşəkar kimi yetişməsində sözsüz ki, təhsil müəssisələri mühüm rol oynayırlar. Bu baxımdan Dövlət Turizm Agentliyinin tabeliyindəki Azərbaycan Turizm və Menecment Universiteti, Bakı Peşə Məktəbi və Mingəçevir Turizm Kollecinin fəaliyyəti xüsusilə əhəmiyyət kəsb edir. Turizm təhsilinin inkişafı ölkədə yerli turizm kadrlarının hazırlanmasına, xidmət keyfiyyətinin artmasına birbaşa olaraq təsir edir. Bunu nəzərə alaraq təhsil müəssisələrində də işlər aparılır".**

Hotelçilik sahəsində mövcud problemlərdən söz açan natiq diqqətə çatdırıb ki, bu sahədəki çatışmazlıqlardan biri də ulduz verilməsi sistemində olan problemlərdir. Bunu nəzərə alaraq bu gün Azərbaycan Hotellər Assosiasiyasının birinci Baş Assambleyasında ölkədə tətbiq olunacaq yeni milli ulduz təsnifat sistemi barəsində də məlumat veriləcək. Ölkədə turizm sahəsində mövsümilik problemi də mövcuddur. Bunun aradan qaldırılması, hotellərin ilboyu xidmət göstərə bilməsi istiqamətində müvafiq işlər gedir. Həm paytaxt Bakıda, həm də regionlarda nisbətən daha kiçik və ulduz sayı az olan hotellərin fəaliyyətini stimullaşdırmaq üçün tədbirlər görülür. Bütövlükdə, Azərbaycanda mövcud olan hotelçilik sisteminin Avropa standartlarına uyğunlaşdırılması qarşımızda duran əsas məqsədlərdən biridir. Məhz bu amili nəzərə alaraq beynəlxalq təşkilatlara üzv olmaq məsələsi gündəmdədir.

**"Azərbaycanın bütün dünyada turizm destinasiyası kimi tanıdılması və yeni brendimizlə xarici bazarlarda ölkənin turizm imkanlarının təbliğində səyləri birləşdirməliyik. Çünki mövcud olan bütün problemlərin həllində ancaq turizm sənayesinin bütün iştirakçılarının, o cümlədən və xüsusilə hotelçilik sahəsinin mütəxəssislərinin birgə mütəşəkkil şəkildə fəaliyyəti önəmlidir. Turistlərə göstərilən xidmətin səviyyəsinin artırılması, turistlərin ölkəmizdən məmnun ayrılması turizm sahəsində çalışan hər kəsin marağında olmalıdır. Bu sahədə çalışan hər kəs turizmin inkişafındakı rolunu və üzərinə düşən məsuliyyəti başa düşməlidir. İnanırıq ki, Azərbaycan Hotel Assosiasiyası bütün bu vəzifələrin öhdəsindən uğurla gələcək və hotelçilik sisteminin inkişafına öz töhfəsini verəcəkdir",** - deyə Fuad Nağıyev vurğulayıb.

Azərbaycan Turizm Bürosunun baş icraçı direktoru Florian Zenqstşmid Azərbaycan Hotellər Assosiasiyasının yaradılmasının ölkədə hotelçiliyin inkişafı üçün mühüm addımlardan biri olduğunu və assosiasiyanın uğurlu fəaliyyətinin dəstəklənməsi məqsədilə birgə tədbirlərin həyata keçiriləcəyini qeyd edib.

**"Bu tədbir turizm sahəsinin əsas fundamental çağırışları üçün əhəmiyyətlidir. Biz qarşıya mühüm hədəflər qoymuşuq. Məqsədimiz Azərbaycanı növbəti 5 il ərzində turistlər üçün Qafqazın ən cəlbedici məkanına çevirməkdir. Rəqabətlik qlobal xarakter daşıyır. Biz əsasən milli turizmin inkişafı naminə dövlət və özəl qurumların əməkdaşlığına nail olmalıyıq. Azərbaycan Hotellər Assosiasiyasının təsis olunması bu sahənin inkişafına öz töhfəsini verəcək",** - deyə natiq bildirib.

Növbəti illərdə Azərbaycan Turizm Bürosunun dünyanın müxtəlif ölkələrində altı nümayəndəliyinin açılacağını söyləyən baş icraçı direktor Florian Zenqstşmid deyib ki, 2020-ci illə qədər 20-dək beynəlxalq sərgidə iştirak etməyi planlaşdırırlar.

Tədbirdə Azərbaycan Hotellər Assosiasiyasının prezidenti Jiri Kobos, "Hotrec - Hospitality Europe" təşkilatının vitse-prezidenti Akos Niklai də çıxış edərək beynəlxalq təşkilatlara, xüsusilə də "Hotrec" təşkilatına üzv olma planlarından bəhs ediblər.

Sonra üzvlük kateqoriyaları, eləcə də yeni milli ulduz təsnifat sistemi, assosiasiyaya üzvlüyün verdiyi üstünlüklər haqqında məlumat verilib.

Qeyd edək ki, 2019-cu il üçün Assosiasiyaya üzvlük haqları tətbiq olunmayacaq. 2020-ci ildən başlayaraq isə müxtəlif kateqoriyalara uyğun olaraq üzvlük haqları müəyyənləşəcək.

# Hikmət Hacıyev: Ziddiyyətlərdən uzaq duran Azərbaycan səmərəli əməkdaşlıq formaları ilə öz nümunəsini təqdim edir

***Çoxşaxəli beynəlxalq əməkdaşlığı dəstəkləyən Azərbaycan 2019-2022-ci illərdə Qoşulmama Hərəkatına sədrlik edəcək. Bu təşkilatın prioritet mövzuları beynəlxalq sülh və təhlükəsizlikdir.***

***Bu fikirlər Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Xarici əlaqələr şöbəsinin müdiri Hikmət Hacıyevin Brüsseldə nəşr olunan nüfuzlu EURACTİV qəzetinin baş redaktoru Georgi Qotevə eksklüziv müsahibəsində yer alıb. AZƏRTAC qəzetdə dərc olunmuş müsahibəni təqdim edir.***


EURACTIV
ecdpm Making policies work
Official: Azerbaijan is ready for chairing Non-Aligned Movement in 2019–2022
By Georgi Gotev | EURACTIV.com
Azerbaijan, a supporter of multilateralism and international cooperation, will chair the Non-Aligned Movement in 2019-2022, with international peace and security as the top priority issues, a senior official from the country told EURACTIV in an exclusive interview.
*Hikmat Hajiyev was recently appointed as head of the foreign policy department, Presidential Administration of the Republic of Azerbaijan.*
*He spoke to EURACTIV's Senior Editor Georgi Gotev.*
entsoe JOIN US ON 6 DECEMBER IN KATOWICE FOR THE COP24
Supporters
MISSION OF CHINA
Raytheon
THE ASTANA TIMES

**- Postsovet məkanında bir neçə "dondurulmuş münaqişə" var. Amma onların bəzilərini "dondurulmuş" hesab etmək olmaz. Çünki bu münaqişələrdə hələ də silahlardan istifadə olunur, insanlar həyatını itirir. Dağlıq Qarabağ da belə münaqişələrdən biridir. Ermənistanda yeni baş nazirin hakimiyyətə gəlişindən sonra bu istiqamətdə hansısa dəyişikliklər olubmu? Münaqişənin həllində müsbət inkişafa ümid varmı?**

- Bu il noyabrın 11-də Birinci Dünya müharibəsinin başa çatmasının 100-cü ildönümü qeyd olunub. Təəssüflə bildirmək lazımdır ki, bu gün Avropada, Azərbaycanın işğal altındakı əraziləri boyunca Birinci Dünya müharibəsini xatırladan səngərlər var. Buna görə sizinlə razıyam. Bu münaqişəni metaforik olaraq "dondurulmuş" hesab edənlər yanılır. Birinci və İkinci Dünya müharibələri göstərib ki, dövlətlərin suverenliyinə və ərazi bütövlüyünə qarşı gücdən istifadənin dəhşətli fəsadları olur. Odur ki, dövlətlərin beynəlxalq birlik tərəfindən tanınmış sərhədlərinin dəyişdirilməsinə cəhd qəbuledilməzdir.

Əgər Ermənistandakı yeni hökumət sivil dövlət qurmaq, əhalisini layiqli həyatla təmin etmək niyyətindədirsə, rəsmi Yerevan üzərinə götürdüyü beynəlxalq öhdəlikləri yerinə yetirməli, BMT Təhlükəsizlik Şurasının qətnamələrində tələb olunduğu kimi, Azərbaycanın işğal altındakı ərazilərindən qoşunlarını çıxarmalıdır. Bundan əlavə, azərbaycanlı məcburi köçkünlər doğma torpaqlarına qayıtmalı, ədalət bərpa olunmalıdır. Ədalət olmadan sülhü təmin etmək mümkün deyil.

Ermənistan qonşu ölkələrlə sülh şəraitində yaşamağı öyrənməlidir. O, hərbi təcavüzü, ərazi iddialarını və öz-özünü təcrid etməyi dayandırmalıdır. Yalnız bundan sonra hərbi riskləri aradan qaldırmaq, işğalla əsaslanan status-kvonu dəyişdirmək olar. Nəticədə münaqişənin siyasi yolla həllinə imkan yaranar.

Yeri gəlmişkən, ATƏT-in Minsk qrupunun həmsədri olan dövlətlər (Fransa, Rusiya, ABŞ) bu münaqişə ilə bağlı status-kvonun dəyişdirilməsinə ehtiyac olduğunu hətta prezidentlər səviyyəsində dəfələrlə vurğulayıblar. Ermənistandakı yeni hökumətdən də bunu gözləyirik. Onlar əvvəlki hərbi xunta rejiminin səhvlərini təkrarlamamalıdır.

Bu ilin sentyabrında Düşənbədə MDB Dövlət Başçıları Şurasının iclası əsnasında Azərbaycan Respublikasının Prezidenti ilə Ermənistanın baş naziri arasında söhbət olub. Nəticədə Azərbaycan konstruktiv mövqeyini, münaqişənin danışıqlar yolu ilə həllində qətiyyətini bir daha nümayiş etdirib. Atəşkəs rejiminin gücləndirilməsi, aşağı səviyyələrdə kommunikasiyanın yaradılması, danışıqlara dair öhdəliklərin təmin edilməsi ilə bağlı şifahi razılıq əldə olunub.

Azərbaycan Ermənistandakı seçkidən sonra ATƏT-in Minsk qrupunun həmsədrlərinin təklif etdiyi və dəstəklədiyi substantiv, intensiv danışıqlara hazırdır. Amma təəssüf ki, Bakının konstruktiv və xoşniyyətli mövqeyinə rəğmən, Yerevan Azərbaycanın işğal altındakı ərazilərində qeyri-qanuni fəaliyyətini davam etdirir. Bu, danışıqlar üçün əlverişli mühitin yaradılmasına ciddi zərbə vurur.

**- Ermənistanın Azərbaycanda ciddi narahatlıq yaradan fəaliyyətinə misal göstərə bilərsinizmi?**

- Ermənistan Azərbaycanın işğal altındakı ərazilərində anneksiya siyasəti yürüdür, qeyri-qanuni fəaliyyətlər həyata keçirir. Bununla o, işğala əsaslanan status-kvonu möhkəmləndirməyə çalışır. Rəsmi Bakıda xüsusilə ciddi narahatlıq yaradan məsələ Suriya ermənilərinin işğal altındakı ərazilərdə məskunlaşdırılması, bu ərazilərdə demoqrafik vəziyyətin süni şəkildə dəyişdirilməsidir. Humanitar hüquqa və Cenevrə konvensiyalarına əsasən, işğal edilmiş ərazilərdə qeyri-qanuni fəaliyyət qadağandır. İşğal altındakı ərazilərdə mineral sərvətlərin istismarı və onların İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı üzv ölkələrinə qeyri-şəffaf şəkildə ixrac edilməsi də ciddi narahatlıq yaradır. Bununla yanaşı, Ermənistan işğal etdiyi ərazilərdə Azərbaycan xalqının əsrlərlə mövcud olan mədəni irsini məhv edir. Onlardan bəzilərinin bərpası artıq mümkün deyil. Azərbaycanın işğal altındakı ərazilərinə qeyri-qanuni səfərlər, bu ərazilərdə qanunsuz əməllərin həyata keçirilməsi sülh prosesinə xələl gətirməklə yanaşı, etnik təmizləməyə məruz qalmış 1 milyondan çox azərbaycanlı məcburi köçkün və qaçqının kollektiv hüquqlarının pozulmasıdır.

**- Rəsmi Bakı bütün qlobal ölkələrlə yaxşı əlaqələrə əsaslanan siyasət yürüdür. Lakin qlobal ölkələr arasında münasibətlər daha da pisləşir: ABŞ ilə Avropa İttifaqı (Aİ) arasında münasibətlər indiyədək görünmədiyi qədər pisdir, Vaşinqtonla Pekin arasında əlaqələrdə problemlər var, Rusiya ilə Qərb ölkələri arasındakı münasibətlər narahatedicidir. Bugünkü vəziyyəti necə qiymətləndirirsiniz? Bu, Azərbaycan üçün nə kimi nəticələr verə bilər? Ölkənizin beynəlxalq səviyyədə rolu necə olacaq?**

- Beynəlxalq münasibətlərdə artan gərginlik və ziddiyyət dünya ictimaiyyətinin məsuliyyətli üzvü olan Azərbaycanı da narahat edir. Çünki rəsmi Bakı qanunlara əsaslanan beynəlxalq siyasi və iqtisadi düzəni dəstəkləyir. Bununla yanaşı, o, çoxşaxəli beynəlxalq münasibətlərin və əməkdaşlığın tərəfdarıdır.

Azərbaycan universal təsisatlarla bağlı islahatların və onların müasir dövrə uyğunlaşdırılmasının sadiq tərəfdarıdır. Bakı 2019-2022-ci illərdə Qoşulmama Hərəkatına sədrlik edəcək (Qoşulmama Hərəkatı 120 ölkəni birləşdirən beynəlxalq təsisatdır. Bu təşkilata üzv ölkələr heç bir hərbi bloka qoşulmur). Beynəlxalq sülh və təhlükəsizlik məsələləri Qoşulmama Hərəkatının gündəmində olan prioritet mövzulardır. Azərbaycanın sədrliyi dövründə bu hədəflərə töhfə verməsi üçün güclü iradəsi var. Azərbaycan ziddiyyətlərdən uzaq durur və ikitərəfli səmərəli əməkdaşlıq formaları ilə öz nümunəsini təqdim edir. Bu gün ölkəmiz qlobal sülh platforması rolunu oynayır. Müxtəlif mövqeləri olan ölkələr Azərbaycanda ortaq məxrəc tapır. Məsələn, Rusiya, ABŞ və NATO-nun hərbi liderləri müntəzəm olaraq Bakıda görüşürlər.

Yeri gəlmişkən, sualınız mənə Prezident İlham Əliyevin Şimali Atlantika Şurasının iclasındakı sözlərini xatırlatdı. Dövlətimizin başçısı o zaman demişdi: **"Biz dostlarımızın da bir-biri ilə dost olmasını istərdik".** Bu bəyanat qüvvədə qalır.

**- "Bir kəmər - bir yol" təşəbbüsü Azərbaycan üçün nə qədər vacibdir? Əlbəttə, Beynəlxalq Dəniz Ticarət Limanı şübhəsiz ki, bu böyük mozaikanın bir hissəsidir. Amma Avropa İttifaqı Çinin bu planından narahatdır və bununla bağlı Pekinə öz təklifini verib. Ölkələr üçün uduşlu plan necə ola bilər?**

- Azərbaycan tarixən qədim İpək Yolunun bir hissəsi olub. Ölkənin tarixi təcrübəsinə, coğrafi mövqeyinə, həmçinin Azərbaycanın qlobal ticarətə töhfə vermək əzminə görə rəsmi Bakı belə layihələrdə fəal iştirak edir. Bununla yanaşı, o, bağlantı və uzlaşmalarla əlaqədar müxtəlif modellərin yaradılmasına töhfə verir. Bu gün ölkəmiz regionda ən müasir infrastruktura malik dövlətdir. Buraya İpək Yolunun yerüstü, hava, dəniz və dəmir yolu komponentləri daxildir. Bakı-Tbilisi-Qars dəmir yolunun istismara verilməsi bunun ən bariz nümunəsidir. Çinin "Bir kəmər - bir yol" təşəbbüsünü irəli sürməsindən etibarən Azərbaycan bu layihəni dəstəkləyir. Bununla yanaşı, ölkəmiz Aİ-nin uzlaşma və bağlantılarla əlaqəli konsepsiyasını da təqdir edir. Nəqliyyat dəhlizlərinin yaradılması təkcə yük daşınması demək deyil. Əlbəttə ki, bu, daha böyük anlam kəsb edir. Çünki qədim İpək Yolu göstərib ki, bu, sivilizasiyaların, mədəniyyətlərin əməkdaşlığı və qarşılıqlı zənginləşməsidir. Azərbaycan isə müasir infrastrukturu və geniş regionlara çıxış imkanları sayəsində "Şərq-Qərb" layihəsi vasitəsilə Çin və Avropa bazarlarının birləşməsinə töhfə verir. Bu layihə ilə Çindən Avropaya ən qısa və sərfəli müddətdə yük daşınması mümkün olacaq. Bununla çox sayda iş yerləri yaradılacaq, ölkələr çiçəklənəcək və sabitlik olacaq. Ölkələr üçün uduşlu plan məhz budur.

**- Azərbaycan həm coğrafi, həm də digər xüsusiyyətlərə görə Türkiyə və İranla yaxındır. Amma Aİ üçün geosiyasi ambisiyalara malik belə tərəfdaşlarla işləmək hər zaman asan olmur. Bu məsələ ilə bağlı məsləhət verə bilərsinizmi?**

- Qonşu ölkələrlə əlaqələr Azərbaycanın xarici siyasəti üçün prioritet məsələdir. Düzgün qeyd etdiniz ki, ölkəmizin həm Türkiyə, həm də İranla dostluq və tərəfdaşlıq əlaqələri var. Heç kəsə məsləhət verə bilmərik. Amma Azərbaycan öz təcrübəsini bölüşə və özü ilə bağlı nümunələri göstərə bilər. Ölkəmiz şəffaf, təxminedilən, müstəqil xarici siyasət yürüdür. Rəsmi Bakı heç bir dövlətin daxili işlərinə qarışmır, Azərbaycan öz maraqları ilə tərəfdaşlarının maraqları arasında ortaq nöqtə tapmaq yolu əsasında regional əməkdaşlıq imkanları təklif edir.

Hesab edirik, ən yaxşı inkişaf bölüşülən inkişafdır. Nəticədə sülhə və dostluğa əsaslanan qonşuluq münasibətlərinin yaradılmasına töhfə veririk.

Azərbaycan Türkiyə və İranla ikitərəfli, həmçinin üçtərəfli formatda əməkdaşlıq edir. Bu, qarşılıqlı faydalı olan regional əməkdaşlığa töhfə verir. Sonda onu əlavə etmək istərdim ki, qarşılıqlı xoş niyyətə əsaslanan ümumi maraqlar və etimad sayəsində ikitərəfli əməkdaşlıq modelləri ilə bağlı uğur qazanmaq mümkündür.

# AŞPA-nın komitə iclasında Azərbaycanda Davamlı İnkişaf Məqsədlərinin həyata keçirilməsi sahəsində görülən işlərdən danışılıb

Parisdə Avropa Şurası Parlament Assambleyasının (AŞPA) sosial məsələlər, sağlamlıq və davamlı inkişaf komitəsinin iclası keçirilib. Azərbaycanın AŞPA-dakı nümayəndə heyətinin üzvü, Milli Məclisin deputatı Sevinc Fətəliyeva iclasda iştirak edib.

AZƏRTAC xəbər verir ki, komitə iclasında S.Fətəliyeva ölkəmizdə Davamlı İnkişaf Məqsədlərinin həyata keçirilməsi sahəsində görülən işlərdən danışıb. Bildirib ki, Azərbaycan Prezidentinin Fərmanı ilə ölkəmizdə sosial inkişafa dair milli Koordinasiya Şurası yaradılıb. Onun əsas funksiyası müvafiq dövlət orqanlarının Davamlı İnkişaf Məqsədlərinin tətbiqini əlaqələndirmək və qlobal hədəflərə uyğun prioritetləri tərtib etməkdir. Koordinasiya Şurası dövlət proqramlarının Davamlı İnkişaf Məqsədlərindəki sosial, iqtisadi inkişaf və ekoloji sahələri əhatə edən strategiyalara uyğunluğunu təmin etməkdir. Şura cəmiyyətin bütün təbəqələrinin sosial rifahının yüksəldilməsi, yoxsulluğun aradan qaldırılması, bərabərsizlik, eləcə də iqlim dəyişikliyinə qarşı mübarizəyə cəlb edilməsi üçün bütün səylərini səfərbər edir. Qeyd edib ki, müasir dünyada qaçqın və miqrantların durumu davamlı inkişafı təmin edən amillərdəndir. **"Torpaqlarımızın 20 faizi Ermənistan tərəfindən işğal edilib, ölkəmizdə bir milyondan çox qaçqın və məcburi köçkün var. Onların sosial vəziyyətlərinin yaxşılaşdırılması bu gün Azərbaycan üçün əsas məsələlərdən biridir. Davamlı İnkişaf Məqsədlərinə daha sürətlə nail olmaq üçün bu gün Azərbaycanda müxtəlif dövlət qurumları ilə birgə "dəyirmi masa"lar, konfranslar təşkil olunur. Eyni zamanda, beynəlxalq təşkilatlarla əməkdaşlığa böyük önəm verilir",** - deyə Milli Məclisin deputatı əlavə edib.

S.Fətəliyeva diqqətə çatdırıb ki, Davamlı İnkişaf Məqsədlərinin həyata keçirilməsi üçün regional tərəfdaşlığın gücləndirilməsinə dair Azərbaycan hökuməti və BMT-nin Bakı ofisinin təşəbbüsü ilə davamlı inkişaf üzrə birinci Bakı Forumu keçirilib. Forumda hökumət rəsmiləri, parlament üzvləri, beynəlxalq təşkilatların və vətəndaş cəmiyyətlərinin, eləcə də özəl sektorun təmsilçiləri, alimlər, gənclər daxil olmaqla 30-dan çox ölkədən 200-dən artıq nümayəndə iştirak edib.



Diqqətə çatdırılıb ki, Bakı Forumu müntəzəm olaraq keçiriləcək, siyasətçiləri, işgüzar liderləri və müxtəlif ekspertləri birləşdirəcək.

Milli Məclisin deputatı VI Bakı Beynəlxalq Humanitar Forumu haqqında da məlumat verərək, onun panellərindən birinin davamlı inkişafa həsr olunduğunu vurğulayıb.

# Fərdi jurnalist yazıları müsabiqəsinin qalibləri mükafatlandırılıblar



Dekabrın 4-də Beynəlxalq Əlillər Günü ilə əlaqədar Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi (ƏƏSMN) və Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun (KİVDF) "Əlilliyi olan şəxslər: fiziki məhdudiyyətdən sosial inteqrasiyaya" mövzusunda birgə təşkil etdikləri fərdi jurnalist yazıları müsabiqəsinin nəticələrinə dair tədbir keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbirdə əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev, KİVDF-nin icraçı direktoru Vüqar Səfərli və Fondun Müşahidə Şurasının sədri, "Xalq qəzeti"nin baş redaktoru Həsən Həsənov, ƏƏSMN yanında İctimai Şuranın rəhbəri, Beynəlxalq Avrasiya Mətbuat Fondunun sədri və Azərbaycan Mətbuat Şurasının sədr müavini Umud Mirzəyev, qəzetlərin baş redaktorları, nazirliyin və KİVDF-nin əməkdaşları, kütləvi informasiya vasitələri (KİV) nümayəndələri iştirak ediblər.

S.Babayev fiziki məhdudiyyətli insanların sosial müdafiəsinin gücləndirilməsinin, onların cəmiyyətə fəal inteqrasiyasına şərait yaradılmasının Prezident İlham Əliyevin uğurlu sosial siyasətinin başlıca istiqamətlərindən biri olduğunu vurğulayıb. Nazir bildirib ki, KİVDF ilə birgə təşkil olunan bu müsabiqə də bu istiqamətdə aparılan işlər barədə geniş ictimai məlumatlandırmanın artırılması, eyni zamanda, fiziki qüsurlu vətəndaşların ictimai həyatda bərabərhüquqlu iştirakının təmin olunması, onların bacarıqlarının, məşğulluq imkanlarının dəstəklənməsi məsələlərinə cəmiyyətin diqqətinin artırılmasında peşəkar jurnalist əməyinin stimullaşdırılması məqsədi daşıyır. Müsabiqədə KİV nümayəndələrinin fəal iştirakı, müvafiq mövzularda araşdırmalar aparmaqla daha məzmunlu, əhatəli, oxunaqlı materiallar dərc etdirməyə səy göstərmələri müsbət haldır.

Nazir diqqətə çatdırıb ki, dövlət başçısının tapşırıqlarına uyğun olaraq bu gün nazirliyin fəaliyyət sahələrində mühüm islahatlar aparılır. Əsas məqsəd dövlət sosial xidmətlərinin innovativ həllərin tətbiqi şəraitində vahid platformadan-"DOST" mərkəzlərindən operativ və tam şəffaf, eyni zamanda, keyfiyyətli təşkili, sosial təminat sisteminin mütərəqqi və ədalətli yanaşmalar əsasında təkmilləşdirilməsi, aktiv əmək bazarı proqramlarının səmərəli təşkili və genişləndirilməsi, əmək bazarında, ümumən sosial rifahda rolunun artırılması, qeyri-rəsmi məşğulluğun qarşısının alınmasıdır. Nazirlik bu islahatlar, fəaliyyət sahələrində görülən işlər barədə cəmiyyətin ətraflı məlumatlandırılmasında KİV-in roluna və media ilə əməkdaşlığa xüsusi önəm verir. Bu əməkdaşlıq görülən işlər və aparılan islahatlar barədə ictimai rəyin, vətəndaş mövqeyinin, bir sıra hallarda cəmiyyətdən gələn təşəbbüslərin öyrənilməsində çox faydalıdır. Ona görə də nazirlik jurnalistləri həmişə ictimaiyyətlə fəal əlaqələrin təşkilində, cəmiyyətlə münasibətlərdə yaxın köməkçi hesab edir.

Nazir KİVDF ilə birgə təşkil olunan ikinci, yeni "Azərbaycanda sosial müdafiə sisteminin inkişafı: dünən, bu gün, sabah" mövzusunda müsabiqəyə də bu ay yekun vurulacağını deyib.

S.Babayev gələcəkdə KİVDF ilə birgə belə müsabiqələrin təşkilinin davam etdiriləcəyini, mətbuatla əməkdaşlığın daha da gücləndirilməsinin diqqətdə saxlanacağını bildirib. Müsabiqənin qaliblərini təbrik edən nazir, onlara, həmçinin müsabiqəyə qatılan bütün KİV nümayəndələrinə xoş arzularını ifadə edib.

V.Səfərli Beynəlxalq Əlillər Günü ilə əlaqədar belə bir müsabiqənin təşkil olunmasının əhəmiyyətini vurğulayıb. O bildirib ki, noyabrın 27-də başa çatan müsabiqəyə 32 KİV üzrə 50-ə yaxın jurnalist tərəfindən yazı təqdim olunub. Müvafiq meyarlar əsasında fondun üç eksperti tərəfindən qiymətləndirmələr aparılıb və qaliblər müəyyənləşib.

U.Mirzəyev bu və ya digər dövlət qurumunun KİV-lə əməkdaşlığının güclənməsinin həmin qurumun fəaliyyətinin müsbət göstəricisi kimi qəbul edildiyini, bunun qarşılıqlı faydalı olduğunu bildirib. O, həmçinin fərdi jurnalist yazıları müsabiqələrinin təşkil olunmasının əhəmiyyətindən də bəhs edib.

Qəzetlərin baş redaktorları da belə müsabiqələrin jurnalistlərin əməyinin stimullaşdırılması ilə bərabər, müasir jurnalistikada aidiyyəti mövzularda bilik və təcrübənin artmasına, peşəkar yanaşmanın formalaşmasına dəstək olduğunu bildiriblər.

Sonra müsabiqənin nəticələri elan olunub. Qaliblərə diplom və mükafatlar verilib.

Həmçinin 5 yazı müəllifinə diplom və həvəsləndirici mükafatlar təqdim edilib.

# Tiranada keçirilən konfransda feyk xəbərlərə qarşı mübarizədə informasiya agentliklərinin rolu müzakirə olunub






Dekabrın 3-də Albaniyanın paytaxtı Tirana şəhərində "İnformasiya agentlikləri feyk xəbərlərə qarşı" mövzusunda konfrans keçirilib.

AZƏRTAC xəbər verir ki, Albaniya Teleqraf Agentliyi (ATA) tərəfindən təşkil olunan konfransda müxtəlif ölkələrin aparıcı xəbər agentliklərinin, beynəlxalq və regional media qurumlarının rəhbərləri və nümayəndələri, tədqiqatçılar, tanınmış ekspertlər iştirak ediblər.

Konfransı açan Albaniya Teleqraf Agentliyinin baş direktoru xanım Armela Krasniqi müasir dünyada yanlış xəbərlərin dövlətlər və cəmiyyətlər üçün ciddi təhlükəyə çevrildiyini söyləyib. O deyib ki, yanlış xəbərlərin qloballaşması və onların kommersiya məqsədilə istifadəsi olduqca təhlükəlidir. Bu gün əksər hallarda yanlış xəbərlərdən siyasi kampaniyalar üçün alət kimi istifadə edilir. Yanlış məlumatlandırmaya qarşı ciddi mübarizə aparmaq lazımdır. Bu mübarizədə hər birimiz fəal iştirak etməliyik.

Polşa Xəbər Agentliyinin direktoru Voycieç Surmac yanlış məlumatlandırma siyasətinin bütün dünyanı əhatə edən problemə çevrildiyini söyləyib. O, feyk xəbərlərin yayılmasının qarşısının alınması üçün ənənəvi KİV-lərin sıx birləşməsinin, daha çox düzgün informasiya yaymasının vacibliyini vurğulayıb.

Avropa Xəbər Agentlikləri Alyansının baş katibi, Rumıniyanın AGERPRESS agentliyinin sabiq baş direktoru Aleksandru Giboi qeyd edib ki, feyk xəbər insanların həyatına, hətta dövlətlərin fəaliyyətinə təhlükə yaradır. Baş katib diqqətə çatdırıb ki, yanlış məlumatlandırma ilə mübarizədə informasiya agentliklərinin üzərinə mühüm vəzifələr düşür. Bu mübarizənin səmərəliliyini artırmaq üçün xəbər agentlikləri daim inkişafda olmalı və yalan məlumatlar yayan resursları qabaqlamağa çalışmalıdır.

Albaniya parlamentinin media məsələləri üzrə komissiyasının sədr müavini xanım Milva Ekonomi diqqətə çatdırıb ki, yanlış xəbərlər insanlara, sosial qruplara, təşkilatlara və ölkələrə ciddi ziyan vura bilər. Xəbərlər mütləq analiz edilməli, onların dəqiqliyi araşdırılmalıdır. Təhlükəli dezinformasiya meyillərindən yaxa qurtarmaq üçün dəqiq siyasət hazırlanıb həyata keçirilməlidir.

Feyk xəbərləri ciddi sosial bəla adlandıran Ukraynanın UKRİNFORM agentliyinin baş direktoru Oleksandr Karçenko bildirib ki, dezinformasiya istehsalçılarını tərksilah etməyin ən yaxşı yolu onların metodlarını hərtərəfli öyrənməkdir. Bu, bizə belə fəaliyyətin əsasında nəyin dayandığını dəqiqləşdirməyə imkan verər.

Həmkarlarının fikirlərini bölüşən Serbiyanın Tanyug agentliyinin baş direktoru xanım Maya Vojinoviç qeyd edib ki, feyk xəbərlər insanlar arasında təşviş və xaos yarada bilər. Xəbər agentlikləri dünyanın hər yerindən məlumatları anında əldə edir və yayır. Buna görə də hər bir xəbər ciddi şəkildə yoxlanılmalıdır.

Yunanıstanın ANA/MPA agentliyinin baş direktoru Mixalis Psilos isə deyib ki, istənilən informasiyanın dəqiqliyini təkrar-təkrar yoxlamaq jurnalistin borcudur. O, saxta xəbərlərlə mübarizədə, onların yayılmasının aradan qaldırılmasında dünyanın aparıcı KİV-lərinin daha sıx əməkdaşlıq etməsinin vacibliyini vurğulayıb.

Kipr Xəbərlər Agentliyinin direktoru George Penintaeks qeyd edib ki, bu gün sərbəst, idarə olunmayan informasiyanın yayılması sürətlə artmaqdadır. Saxta xəbərlər tez bir zamanda ictimaiyyətə çatdırılır, bəzən həqiqətən də lazımlı, düzgün informasiyanı kölgədə qoyur. Nəticədə insanlar "dezinformasiya hücumu"na məruz qalırlar. Bununla səmərəli mübarizə yolları araşdırılmalıdır.

Anadolu Agentliyinin baş redaktoru Ogün Duru yalan informasiyadan müəyyən maraqlar üçün istifadə olunduğunu, bunun ağır nəticələrə gətirib çıxardığını söyləyib. O, əvvəllərdə yalan xəbərlərin yayıldığını, sadəcə, hazırda texnologiyaların dəyişdiyini bildirib. Əlavə edib ki, agentliklərin yaydığı xəbərlər daha dəqiq olmalıdır. Mənbədən uzaqlaşdıqca xəbərin dürüstlük dərəcəsi də azalır.

Makedoniya Xəbər Agentliyinin İdarə Heyətinin üzvü Marian Tanuşevski feyk xəbərlərin bəzi bədxah qüvvələrin əlində alətə çevrilməsinin ciddi təhdidlər yaratdığını söyləyib. Marian Tanuşevski sosial şəbəkələrin geniş yayıldığı indiki dövrdə bununla mübarizə aparmağın çətin olduğunu, səylərin birləşdirilməsini tələb etdiyini vurğulayıb.

Konfransda çıxış edən AZƏRTAC-ın baş redaktoru Cavid Bədəlov yanlış məlumatlandırma siyasətinin xalqları, ölkələri, dinləri bir-birinə qarşı qoymaq, münaqişələri alovlandırmaq, çaşqınlıq, vahimə, nifrət yaratmaq kimi təhlükələrindən danışıb. Baş redaktor diqqəti bu ilin oktyabrında Azərbaycanın paytaxtında keçirilən VI Bakı Beynəlxalq Humanitar Forumu çərçivəsində AZƏRTAC tərəfindən təşkil olunan "Yanlış məlumatlandırma siyasəti - müasir dünyada sabitliyə təhdid" mövzusunda işçi sessiyaya cəlb edib, həmin tədbirdə feyk xəbərlərlə mübarizə istiqamətində səmərəli müzakirələrin aparıldığını, faydalı təkliflərin irəli sürüldüyünü diqqətə çatdırıb.

Sonra konfransda yanlış məlumatlandırmaya qarşı mübarizə yolları, ənənəvi medianın, xüsusilə informasiya agentliklərinin bu mübarizədə rolu ilə bağlı fikir mübadiləsi aparılıb.

Müzakirələr zamanı oktyabr ayında AZƏRTAC-ın, bu gün isə ATA agentliyinin ciddi narahatlıq doğuran bu mövzu ilə əlaqədar tədbirlər təşkil etmələrinin təqdirəlayiq olduğu vurğulanıb, belə sessiya və konfransların digər ölkələrdə də keçirilməsinin önəmi qeyd olunub.

# Azərbaycanın sənaye məhsulları ixrac etmək imkanları ildən-ilə daha da artacaq



***Milli Məclisin deputatı Mirzəcan Xəlilov www.yap.org.az saytına müsahibə verib:***

**- Mirzəcan müəllim, Azərbaycan son illər bütün sahələrdə mühüm uğurlar qazanıb, respublikamızın beynəlxalq nüfuzu daha da artıb. Ölkəmizdə ötən müddət ərzində həyata keçirilən uğurlu siyasət sayəsində əldə edilən nəticələr və nailiyyətlər barədə nə deyə bilərsiniz?**

- Ümumiyyətlə, hazırda Azərbaycan beynəlxalq miqyasda həm demokratik dövlət, həm özünəməxsus inkişaf modelinə malik olan ölkə, həm də etibarlı tərəfdaş kimi tanınır. Şübhəsiz ki, bu, uğurlu, müasir çağırışlara cavab verən daxili və xarici siyasət sayəsində mümkün olub. Ümummilli lider Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasət nəticəsində Azərbaycan ötən müddət ərzində çox mühüm nailiyyətlər əldə edib, bütün sahələrin tərəqqisinə nail olub. Heç şübhəsiz, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın keçdiyi inkişaf yolunun ən mühüm keyfiyyətlərindən biri sabitlik və tərəqqinin paralel olmasıdır.

Bütövlükdə, Azərbaycan iqtisadiyyatının inkişafı davamlı və dinamik xarakter daşıyır. Son 15 ildə bütün dünya miqyasında iqtisadi baxımdan Azərbaycan qədər inkişaf edən ölkə olmayıb. Respublikada innovativ əsaslı, elmtutumlu iqtisadiyyat quruculuğu davamlı şəkildə diqqət mərkəzində saxlanılıb. Belə məqsədyönlü yanaşmanın nəticəsidir ki, 2004-cü ildən etibarən bütün dünya üzrə ÜDM istehsalının artımında ən yaxşı göstəricilərdən biri 3 dəfədən çox olmaqla məhz Azərbaycanda qeydə alınıb. Təsadüfi deyil ki, beynəlxalq reytinq agentlikləri də Azərbaycanın sosial-iqtisadi inkişafını, bu istiqamətdə həyata keçirilən tədbirlərin nəticələrini olduqca yüksək qiymətləndirirlər. Bu yaxınlarda nüfuzlu reytinq agentlikləri öz hesabatlarında Azərbaycan iqtisadiyyatının 2018-2021-ci illərdə orta hesabla 3 faiz artacağına dair proqnozlar ifadə ediblər.

Ötən müddət ərzində qazanılmış nailiyyətlərin fonunda Azərbaycanın beynəlxalq nüfuzu da kifayət qədər artıb. Ölkəmiz beynəlxalq miqyasda müsbət imicə malikdir. Nüfuzlu, mötəbər beynəlxalq tədbirlərə ev sahibliyi edən, tolerant Azərbaycan həm də multikulturalizm ideyalarını uğurla təbliğ və təşviq edir, sivilizasiyalararası dialoqa mühüm töhfələr verir. Bir sözlə, həyata keçirilən uğurlu daxili və xarici siyasətin real nəticəsi kimi, müstəqil Azərbaycan inkişaf yolunda inamla irəliləyir.

**- Cənubi Qafqaz regionunun lideri olan Azərbaycanın təşəbbüsü və liderliyi ilə mühüm enerji layihələri reallaşdırılır, eyni zamanda, ölkəmiz Avrasiyanın nəqliyyat xəritəsinə öz dəyərli töhfəsini verir. Bu barədə nə deyə bilərsiniz?**

- Həqiqətən də, bu gün Azərbaycanın iştirakı olmadan regionda hər hansı bir layihə gerçəkləşdirilə bilməz. Cənubi Qafqazın lider dövləti olan Azərbaycanın moderatorluğu ilə regionda strateji əhəmiyyətli layihələr reallaşdırılır, yeni əməkdaşlıq platformaları yaradılır. Hazırda respublikamızın təşəbbüsü ilə yaradılmış Xəzər hövzəsini uzaq Adriatik dənizi, oradan isə Avropa ölkələri ilə əlaqələndirən Cənub Qaz Dəhlizinin investisiya dəyəri 40 milyard dollardan çoxdur və bu layihə 7 ölkəni birləşdirir. Cənub Qaz Dəhlizinin resurs mənbəyi rolunda Azərbaycanın zəngin "Şahdəniz" yatağı çıxış edir. "Şahdəniz" qaz yatağı üzrə kontrakt 1996-cı il iyulun əvvəlində imzalanıb. Ehtiyatları 1 trilyon kubmetrdən çox qiymətləndirilən "Şahdəniz" dünyanın ən böyük qaz yataqlarından biridir. Təsdiq olunmuş 2,6 trilyon kubmetr qaz ehtiyatına malik olan Azərbaycan qaz hasilatının artırılması ilə bağlı əlavə addımlar atmaq və ixrac coğrafiyasını daha da genişləndirmək fikrindədir. Bununla da Azərbaycan Avropanın enerji təhlükəsizliyinə növbəti töhfə verəcək.

Bunlarla yanaşı, Azərbaycan Avrasiyanın nəqliyyat xəritəsinə də öz dəyərli töhfəsini verir. Ölkəmizin əlverişli coğrafi mövqeyi respublikamızın istər Şərq-Qərb, istərsə də Şimal-Cənub dəhlizlərində vacib rol oynamasını şərtləndirir. Bakı-Tbilisi-Qars (BTQ) dəmir yolu layihəsinin işə düşməsi Azərbaycanın beynəlxalq səviyyəli tranzit və logistika mərkəzinə çevrildiyinin əyani sübutudur. BTQ Azərbaycan, Gürcüstan və Türkiyə arasında iqtisadi-nəqliyyat əlaqələrinin daha da genişlənməsinə müsbət təsir göstərməklə yanaşı, daha geniş coğrafiyada yerləşən ölkələr üçün də böyük əməkdaşlıq imkanları açır. Bütün bunlar onu göstərir ki, Azərbaycan regionun nəqliyyat-logistika mərkəzinə çevrilib.

**- Diqqət çəkən məqamlardan biri də ölkəmizdə qeyri-neft sənayesinin inkişafıdır. Bu baxımdan, bir sıra regionlarda sənaye parklarının və məhəllələrinin yaradılmasının əhəmiyyəti nədən ibarətdir?**

- Bəli, son illərdə ölkəmizdə Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən məqsədyönlü siyasət sayəsində Azərbaycanın qazandığı uğurlardan söhbət açarkən sənaye sektorunda istehsalın genişlənməsini xüsusi qeyd etmək lazımdır. Davamlı siyasi və maddi dəstək tədbirlərinin nəticəsi olaraq respublikamızda çoxlu sayda yeni müəssisələr açılıb və ölkənin sənaye xəritəsi əhəmiyyətli dərəcədə zənginləşib. Hazırda sənaye sektoru milli iqtisadiyyatımızın aparıcı istiqamətlərindən biri qismində çıxış edir. Xüsusilə ölkəmizdə qeyri-neft sənayesinin üstün inkişafının təmin edilməsi məmnunluq doğurur. Əlamətdar haldır ki, son illərdə bir sıra mühüm mövqelər üzrə daxili tələbat sırf yerli müəssisələrdə buraxılan yüksəkkeyfiyyətli məhsullar hesabına təmin edilir ki, bu da daha çox həcmdə valyutanın xaricə axınının qarşısının alınması deməkdir.

Son illər Azərbaycanda bir neçə sənaye parkı yaradılıb və hazırda onların genişləndirilməsi istiqamətində işlər davam etdirilir. Sənaye parklarının yaradılması ölkədə müasir sənaye quruculuğuna yeni təkan verib. Qeyd edim ki, ölkəmizdə Prezident İlham Əliyevin siyasi iradəsinə uyğun olaraq rezidentlərin sənaye parklarına investisiya yönəltmələri güclü şəkildə təşviq edilir. Sənaye parkları üçün infrastruktur təminatı bir qayda olaraq dövlət vəsaiti hesabına yaradılır. Bundan başqa, sənaye parklarının rezidentləri qeydiyyata alındığı gündən etibarən 7 il müddətinə mənfəət, əmlak və torpaq vergilərindən, eləcə də parka istehsal məqsədilə gətirilən texnika, texnoloji avadanlıqlar və qurğulara görə əlavə dəyər vergisindən, həmçinin gömrük rüsumundan azaddırlar. Sənaye parklarında rezidentlərin qeydiyyatı "bir pəncərə" sistemi ilə həyata keçirilir. İş adamları da yaradılan əlverişli şəraitdən, dövlət dəstəyindən maksimum dərəcədə bəhrələnməyə çalışırlar. Belə dövlət-özəl sektor əməkdaşlığının nəticəsidir ki, sənaye parklarının yaradılması artıq öz səmərəsini verir. Prezident İlham Əliyev Nazirlər Kabinetinin 2018-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasındakı nitqində diqqəti ölkədə yaradılan sənaye parklarının səmərəliliyinə cəlb edərək vurğulayıb: **"Sənaye parklarında rezidentlərin sayı 50-yə yaxınlaşır. Sənaye parklarının yaradılması da öz səmərəliliyini göstərmişdir. Əgər biz bu parkları yaratmasaydıq, orada investorlara yaxşı güzəştli şərtlər yaratmasaydıq, indi 50-yə yaxın rezident olmazdı. Bu gün bu parklarda icra edilmiş və icra ediləcək layihələrin ümumi dəyəri 3,6 milyard dollardır. Bax, investisiya təşviqi sənədi 2,5 milyard manat sərmayə gətirir, sənaye parklarına isə 3,6 milyard dollar sərmayə qoyuluşu nəzərdə tutulur. Ondan 2,6 milyard dolları artıq qoyulub".**

**- Mirzəcan müəllim, yeni sənaye müəssisələrinin istifadəyə verilməsi Azərbaycanın ixrac imkanlarını nə dərəcədə genişləndirir?**

- Təbii ki, Azərbaycanda istehsal olunan məhsulların xaricə ixrac edilməsi imkanlarının genişləndirilməsi diqqət mərkəzindədir. Bilirsiniz ki, cari ilin doqquz ayında ölkəmizin xarici ticarət dövriyyəsi 37 faiz artıb. İxrac da təxminən bir o qədər genişlənib. Bu dövrdə respublikadan qeyri-neft ixracı təxminən 14 faiz artıb.

Bu gün respublikamızın ixrac imkanlarının genişlənməsində ölkə üzrə yaradılan yeni sənaye müəssisələrinin də böyük rolu var. Bu müəssisələrdə buraxılan məhsulların bir hissəsi ölkə daxilində reallaşdırılır, digər bir hissəsi isə xarici bazarlara çıxarılır.

Bütövlükdə, Azərbaycanın sənaye məhsulları ixrac etmək imkanları ildən-ilə daha da artacaq.

# Azərbaycan İlahiyyat İnstitutunda "Vəhdət qanımızdadır" filmi nümayiş olunub






Azərbaycan İlahiyyat İnstitutunda (Aİİ) Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) sifarişi ilə çəkilmiş "Vəhdət qanımızdadır" sənədli filminin ilk nümayişi olub.

Aİİ-dən AZƏRTAC-a bildiriblər ki, tədbirdə çıxış edən rektor Ceyhun Məmmədov ölkəmizdə müxtəlif dinlərə məxsus insanların dinc şəraitdə yaşadıqlarını, sünni və şiə məzhəb nümayəndələrinin birlikdə Vəhdət namazı qıldıqlarını Azərbaycanın multikulturalizm modelinə nümunə kimi qiymətləndirib. Qeyd edilib ki, "Vəhdət qanımızdadır" filmi dini maarifləndirmə işinə öz töhfəsini verəcək.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin müavini Səyavuş Heydərov bildirib ki, dövlət-din modeli ölkəmizin siyasətində əhəmiyyətli yerlərdən birini tutur. Dini radikalizmin mahiyyəti, yaranma səbəbləri və onunla mübarizənin hüquqi əsasları barədə məlumat verən S.Heydərov qeyd edib ki, bu kimi tədbirlərin keçirilməsində əsas məqsəd dini radikalizmlə mübarizə sahəsində maarifləndirmə işlərinin gücləndirilməsidir. S.Heydərov İslam dininin sülh dini olduğunu qeyd edib. O vurğulayıb ki, bəzi qüvvələr öz maraqlarını həyata keçirmək üçün İslam dinindən, din amilindən istifadə edirlər.

"Gəncliyə Yardım" Fondunun prezidenti Ahmet Tecim, Türkiyənin ölkəmizdəki səfirliyinin din işləri üzrə müşaviri, professor Kamil Günəş "Vəhdət qanımızdadır" sənədli filminin əhəmiyyətini qeyd etməklə yanaşı, Aİİ-nin yaradılmasının ölkədə dini maarifləndirmə işinin gücləndirilməsi istiqamətində atılan mühüm addım kimi qiymətləndiriblər.

Tədbirin sonunda Aİİ tələbələri Azərbaycandakı məzhəblərarası birliyi və qardaşlığı tərənnüm edən "Vəhdət qanımızdadır" sənədli filminin nümayişi ilə bağlı fikirlərini bildiriblər.

# AZƏRTAC-ın fotoları Astanada təşkil olunan fotosərgidə nümayiş etdirilir




Astanada "Qazaxıstanın birinci Prezidenti" gününə həsr edilmiş fotosərgi nümayiş olunur.

AZƏRTAC xəbər verir ki, "Qazaxıstan: Müdrik güc" adlı sərgi ölkənin İnformasiya və Kommunikasiya Nazirliyi və "Kazinform" beynəlxalq informasiya agentliyi tərəfindən hazırlanıb. Fotosərgidə "Kazinform"un və onun əməkdaşlıq etdiyi agentliklərin fondundan götürülmüş fotolar toplanıb. Bu fotoşəkillərdə Qazaxıstan Prezidenti Nursultan Nazarbayevin fəaliyyətinin bir sıra məqamları əksini tapıb.

Sərgi Azərbaycanın AZƏRTAC, İranın İRNA, Özbəkistanın UzA, Türkiyənin Anadolu, Belarusun Belta, Ukraynanın Ukrinform, Tacikistanın Xovar və Qırğızıstanın Kabar agentliklərinin fotoları əsasında tərtib edilib.

Fotosərgidə AZƏRTAC Rafiq Bağırov, Oktay Məmmədov və Vüqar Əmrullayevin lentə aldıqları fotolarla təmsil olunur.

Qeyd edək ki, Azərbaycan və Qazaxıstanın iki aparıcı xəbər agentliyi beynəlxalq və regional media qurumları çərçivəsində sıx əməkdaşlıq edir.

Sərgi dekabrın 10-dək davam edəcək.

# "Nar"dan eşitmə və nitq məhdudiyyətli şəxslər üçün pulsuz videozənglər




"Nar" korporativ sosial məsuliyyət (KSM) strategiyası çərçivəsində növbəti sosial aksiyasını gerçəkləşdirib. 3 dekabr - Beynəlxalq Əlillər Günündə mobil operator fiziki məhdudiyyətli insanlara dəstək nümayiş etdirib. Belə ki, "Nar" eşitmə və nitq məhdudiyyəti olan insanların bir-biri və yaxınları ilə daha rahat ünsiyyət qurması üçün onları limitsiz internetli "Nar" nömrələri ilə təmin edib.

Təqdim edilən "Nar" nömrələri ilə eşitmə və nitq məhdudiyyətli şəxslər videozəng edə bilər. Videozəng vasitəsilə eşitmə və nitq məhdudiyyətli şəxslər öz fikirlərini işarət dilində izah etməklə yaxınları ilə daha rahat ünsiyyət qura biləcəklər. Bununla da məsafədən asılı olmayaraq, əlaqə problemlərindən uzaq olacaq və cəmiyyətə daha asan inteqrasiya olunacaqlar. Qeyd edək ki, nömrələr "Eşitmə və Nitq Məhdudiyyətli Şəxslərə Sosial Yardım" İB-nin üzvlərinə təqdim edilib.

Qeyd edək ki, 1992-ci il oktyabrın 14-də BMT Baş Məclisi dekabrın 3-nün "Beynəlxalq Əlillər Günü" kimi qeyd olunması haqqında Bəyannamə qəbul edib. Məqsəd cəmiyyəti fiziki məhdudiyyətli insanların problemlərinin həllinə cəlb etmək, onların bütün hüquqlarını qorumaqdır.

3 dekabr - Beynəlxalq Əlillər Günü ərəfəsində "Nar" eşitmə və nitq məhdudiyyəti olan insanların işarət dilində olan sözlərini jestlərlə izah edən "Səssiz dünyaya körpü" adlı kitabı nəşr etdirib. Məlumat xarakterli vəsait sayəsində eşitmə və nitq məhdudiyyəti olan insanlar və onların yaxınları daha çox söz toplusu əldə edəcək və ünsiyyət zamanı çətinlikdən uzaq olacaqlar. Fiziki məhdudiyyətli şəxslərə dəstək "Nar"ın korporativ sosial məsuliyyət (KSM) strategiyasının əsas istiqamətlərindən biridir. Mobil operator fiziki məhdudiyyətli insanlara qayğı göstərmək və onların cəmiyyətə inteqrasiya olunması istiqamətində müxtəlif layihələr gerçəkləşdirib. Qeyd edək ki, "Azerfon" ("Nar" ticarət nişanı) şirkətinin əməkdaşları arasında da hazırda fiziki məhdudiyyətli şəxslər də var.

"Nar"ın KSM strategiyası haqqında daha ərtaflı məlumatı nar.az saytından əldə etmək olar.

# Xaricdəki antimilli ünsürlərin pul davasında yeni mərhələ...

*Məhəmməd Mirzəli Əlövsət Sadıqlının oğlu Turalla əlbir olaraq "mühacir biznesi" qurduğunu bildirib*

Xarici ermənipərəst mərkəzlərin maliyyə dəstəyi ilə ölkəmizin milli maraqlarına xəyanət edən, dövlətimizə qarşı aparılan çirkin kampaniyaların tərkib hissəsinə çevrilən xaricdəki radikal ünsürlərin arasında gərginlik daha da artıb. Qeyd edək ki, Azərbaycan dövlətinin milli maraqlara uyğun müstəqil xarici və daxili siyasət kursu yürütməsindən, eləcə də ölkəmizdəki demokratik inkişafdan narahatlıq keçirən, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli prosesində işğalçı ermənilərə yardım etmək üçün bir sıra yollara baş vuran xarici antimilli dairələrin qrant verdiyi bu satqın və xayanətkar ünsürlər pul qarşılığında hər şeyə hazır olduqlarını dəfələrlə sübuta yetiriblər. Onlar 3-5 manat qrant üçün nəinki xalqımızı və dövlətimizi hədəfə alır, maraqları toqquşanda hətta bir zamanlar birgə fəaliyyət göstərdikləri "iş yoldaşları"na da xəyanət etməkdən çəkinmirlər. Necə deyərlər, pulun şirinliyi bu köhnə "dostları" yeni düşmənə çevirir.

Elə bir neçə gündür ki, davam edən Tural Sadıqlı - Məhəmməd Mirzəli "savaş"ı buna bariz misaldır. Xəbər verildiyi kimi, xarici mərkəzlərdən aldıqları pulları bölə bilməyən, daha doğrusu, pulun mənimsənildiyini iddia edən xəyanətkar ünsürlər sosial şəbəkələrdə bir-birlərinə qarşı təhqirlər yağdırırlar. Belə ki, M.Mirzəlinin Tural Sadıqlıya xitabən **"Mən heç zaman bunu yazmazdım, özün məcbur etdin. Sən özünü ifşa etmək qərarına gəldin, davam elə. Mənim də deyəcəyim şeylər olacaq. Qrantı aldın, nə qrant verən təşkilatın adını açıqladın, nə aldığın qrantın məbləğini dedin, məni efirə çıxarıb məndən pul qazandın. Mən də sənin bu əməlinə qarşılıq olaraq öz videolarımı youtubdan sildirdim. Mən bu işləri pulsuz görən adamam, biz qrant gəlməsə belə birgə nəyəsə razılaşsaydıq, təbii ki, işlər görüləcəkdi. Amma məsələnin mahiyyəti budur ki, sən məndən istifadə etdin, "xalqın layihəsi"ni də qrant üçün etdin, mən bu dəqiqənin özündə belə "xalqın layihəsi"ni etməyə hazıram, pulsuz-parasız gəl edək, digər səhifələri də çağıraq. Bir də ki, elə yazmısan ki, yanımıza çəkdik, filan etdik. Mən öz işimi özüm həyata keçirmişəm"** deməsinin ardından T.Sadıqlı keçmiş şərikini təhqir edib. Əlində olan videolardan da istifadə etməklə M.Mirzəlini biabır edən T.Sadıqlı bildirib ki, Məhəmməd satqın və ikiüzlü insandır. T.Sadıqlı sosial şəbəkələrdə Məhəmmədin qohumlarının həbsi ilə bağlı yaydığı xəbərlərin yalan olduğunu deməklə yanaşı, onu savadsız və cahil adam adlandırıb: **"Bu adamın danışığından da bilinir ki, heç bir savadı, dünyagörüşü yoxdur. Yalnız söyüş söyməklə nəyəsə nail olmaq istəyirdi, hamı da bizi qınayırdı ki, niyə bu adama efir verirsiz. Biz, sadəcə, ona dəstək olmaq istədik, o da belə etdi. Mən, sadəcə olaraq, sizə videonu göstərəcəm və özünüz hər şeyi başa düşəcəksiz. Məhəmməd canlı yayımda deyir: şərəfsiz sözü söyüş deyil, evdə həyat yoldaşım da mənə şərəfsiz deyir".**

M.Mirzəli isə bu dəfə yeni məsələlərə aydınlıq gətirib. Belə ki, Turalın onu aldadaraq "gəlirləri" mənimsədiyini deyən M.Mirzəli bildirib ki, keçmiş şəriki onu beynəlxalq təşkilatlarda qrant yeyən, yalan danışan, insanları aldadan adam kimi təqdim edib. Turaldan "xidmətinin qarşılığında pulunu" tələb edən M.Mirzəli T.Sadıqlının atasının da qanunsuz fəaliyyətlə məşğul olduğunu bildirib: **"Əlövsətin oğlu Tural! Mənə çatacaq pulu özümə ver. Vaxtilə Tural demişdi ki, gördüyümüz işlərdən 10-20 min avro arası mənə pul çatacaq. Ancaq o pulu vermədi. İndi də həmin pulu mənim bank hesabıma göndərmir. Turalın atası Əlövsət Azərbaycanda qrant alan, qrant yeyən QHT-şnik kimi tanınır. Mühacirət edən azərbaycanlılara saxta arayışlar düzəldib satan da, mənim adıma göndərilən pulları mənimsəyən də Tural Sadıqlıdır. Azərbaycanda korrupsiya var deyən Əlövsətin oğlu Turalın özü və atası ən böyük korrupsionerlərdir".**

M.Mirzəli onu da bildirib ki, vaxtilə Siracla Fərəc qardaşlarından polisə şikayət edən, çıxdığı yola, dostlarına, əqidədaşlarına xəyanət edən kəsdir Tural Sadıqlı: **"Mənim üzərimdən pullar qazanıb, reytinq əldə edib Tural. Haqqımı halal etmirəm, haramı olsun! Saxta sənəd satan, qaçaqmalçılıq edən, insanları aldadan, Avropanın, o cümlədən Almaniyanın küçələrinə tökən yenə də Əlövsətin oğlu Turaldır. Ailəsini dağıdan, qadınına sahib olmayan, onu qapıdan qovan birisidir Tural. Bu video ilə Turalın nöqtəsini qoyuram, onu ifşa edirəm mən. Almaniyada təşkilat yaradan və guya ətrafına 200-300 nəfər toplayan Turalın indi yanında bir nəfər də yoxdur. Maraqlıdır, niyə? Çünki Tural çamurun içində olduğu üçün ətrafındakı təmiz insanların paxıllığını çəkir, onlara çamur atır, ləkələyir. Belə xarakterə sahibdir. Təsəvvür edin, Tural mənim barəmdə yazı yazır, onun dədəsi Əlövsət də girib həmin yazının altında söyüş söyür. Ağsaqqal kişidir, utanmır. Tural Sadıqlı əgər qrant almırsa, Berlindəki ofisi hansı pulla saxlayır? Yardım kimi ayda ona verilən 450 avro ilə ofis saxlamaq olar? Son olaraq demək istəyirəm ki, tüpürüm sənin vicdanına".**

Beləliklə, antimilli şəbəkə qismində çıxış edən radikal ünsürlərin maddi mənfəət qarşılığında hansı vəziyyətə düşdükləri ortadadır. Bütün "paxırları" ortaya çıxmış radikal ünsürlərin bundan sonra hansı üzlə həmin antimilli mərkəzlərə üz tutacaqları isə başqa bir müzakirə mövzusudur...

**Pərviz SADAYOĞLU**

# "Regional İnkişaf" İctimai Birliyi könüllülərinin birinci ümumrespublika konfransı keçirilib









Dekabrın 4-də Şəki şəhərindəki Heydər Əliyev Mərkəzində "Regional İnkişaf" İctimai Birliyi (RİİB) könüllülərinin birinci ümumrespublika konfransı keçirilib.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, konfransdan əvvəl tədbir iştirakçıları könüllülərin əl işlərindən ibarət sərgi ilə tanış olublar. Sərgidə ölkənin müxtəlif bölgələrini təmsil edən gənclərin rəsm və tikmələri, o cümlədən qədim şəbəkə sənəti üzrə nümunələr və tullantılardan hazırlanmış əsərlər təqdim edilib. Eksponatlar arasında, eyni zamanda, RİİB-in fiziki imkanları məhdud könüllülərinin əl işləri də yer alıb.

Konfrans "Regional İnkişaf" İctimai Birliyinin könüllülük fəaliyyətinə dair videoçarxın nümayiş etdirilməsi ilə başlayıb.

Tədbirdə RİİB-in könüllüləri qazandıqları təcrübə barədə fikirlərini bölüşüb, İctimai Birliyin yeni layihələrini təqdim ediblər.

Diqqətə çatdırılıb ki, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə təsis olunan "Regional İnkişaf" İctimai Birliyinin əsas məqsədi ölkəmizin ictimai-siyasi, sosial-mədəni həyatında, vətəndaş cəmiyyəti quruculuğunda layihələr reallaşdırmaq, ictimai nəzarəti həyata keçirmək, ölkədə aparılan islahatlara, o cümlədən dövlət tərəfindən regionların inkişafına yönəlmiş tədbirlərə geniş dəstək göstərməkdir.

RİİB-in nümayəndəsi Cəmil Əliyev bildirib ki, hazırda təşkilatın fəaliyyəti bütün respublika ərazisini əhatə edir və onun 9 regional mərkəzi yaradılıb. İctimai Birliyin fəaliyyətində bölgələr üzrə 500-dək könüllü iştirak edir.

Konfransda Azərbaycan Respublikası Gənclər Fondunun icraçı direktoru Fərid Cəfərov gənclərin könüllülük hərəkatının formalaşması və genişləndirilməsində rolu barədə çıxış edib. Bildirib ki, Gənclər Fondu və RİİB müxtəlif layihələr çərçivəsində tərəfdaşlıq edirlər. Heydər Əliyev Fondu ölkənin Birinci vitse-prezidenti Mehriban Əliyevanın rəhbərliyi ilə istər respublikamızda, istərsə də beynəlxalq miqyasda həyata keçirdiyi humanitar, mədəni layihələrlə xalqımızın zəngin mədəni irsinin təbliğinə, Azərbaycan həqiqətlərinin dünyaya tanıdılmasına, ölkədə elm, təhsil və səhiyyənin inkişafına töhfələr verir. Bu mənada "Regional İnkişaf" İctimai Birliyi də regionlarda əhalinin sosial-iqtisadi problemlərinin həll olunmasında, onların bilik və bacarıqlarının artırılmasında, potensialının reallaşdırılmasında çoxsaylı layihələr həyata keçirib.

Qeyd olunub ki, könüllülük sərbəst seçim əsasında ictimai və cəmiyyət maraqları naminə təmənnasız fəaliyyətə xidmət edir. Bu fəaliyyətin hədəfi digər şəxslərin, icma və təşkilatların həyat keyfiyyətinin yaxşılaşdırılmasına yönəldilib. Bununla belə, könüllülük fəaliyyəti müddətində könüllülər özləri də müəyyən bilik, təcrübə və bacarıq əldə edirlər. Bu sahədə fəaliyyəti nizamlayan qanunun qəbul edilməsindən ötən doqquz il ərzində ölkəmizdə bir sıra mötəbər beynəlxalq tədbirlərin, idman yarışlarının uğurla keçirilməsində könüllülərin böyük xidməti olub.

Sonra RİİB-in fəaliyyətində aktiv iştirak edən könüllülər sertifikatlarla təltif olunublar.

Tədbirin sonunda "Regional İnkişaf" İctimai Birliyi könüllülərinin birinci ümumrespublika konfransı iştirakçılarının Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə müraciəti oxunub. Müraciətdə qeyd olunur ki, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə 2016-cı ilin fevralında təsis edilən "Regional İnkişaf" İctimai Birliyinin əsas məqsədi vətəndaş cəmiyyəti quruculuğunda əhəmiyyətli layihələr reallaşdırmaq, dövlət tərəfindən aparılan islahatlar, o cümlədən regionların inkişafı üzrə həyata keçirilən tədbirlərə hərtərəfli dəstək göstərməkdir. Gənclərin intellektual və yaradıcılıq potensialının üzə çıxarılması və Vətən naminə səfərbər edilməsində könüllü fəaliyyətin rolu danılmazdır. "Regional İnkişaf" İctimai Birliyinin könüllüləri bundan sonra da öz fəaliyyətində humanizm, insanseverlik, xalqa və dövlətə xidmət kimi dəyərlərə sadiq qalaraq regionların sosial-iqtisadi inkişafı, Azərbaycanın tərəqqisi naminə böyük əzmlə çalışacaqlar.

# Seçkidən sonra işğalçı ölkədə vəziyyət daha da gərginləşəcək

*Nikol Paşinyanın indidən qanun pozuntularına rəvac verməsi Ermənistan cəmiyyətində parçalanma və qarşıdurmanın dərinləşməsi ilə nəticələnib*

Dekabrın 9-da keçiriləcək növbədənkənar parlament seçkiləri ərəfəsində işğalçı Ermənistanda gərginlik ən kritik mərhələyə qədəm qoyub. Bu da səbəbsiz deyil. Belə ki, təbliğat kampaniyası ilə yanaşı, rəqiblərinə qarşı qisasçılıq siyasətini genişləndirməyə başlayan Nikol Paşinyan çıxışlarını daha çox qarşı düşərgəni ittiham etmək və aclıqdan əziyyət çəkən erməni əhalisinə heç bir perspektivi olmayan vədlər vermək üzərində qurub.

Daha dəqiq desək, erməni mətbuatı yazır ki, baş nazir vəzifəsini icra edən, "Mənim addımım" seçki blokunun lideri N.Paşinyan keçirdiyi görüşlərdə qeyri-real vədlər verməklə yanaşı, öz səriştəsizliyini ört-basdır etmək üçün respublikaçılara qarşı hücumunu daha da kəskinləşdirib. Ekspertlərin fikrincə, cəmiyyətdə yaradılan qarşıdurma əhval-ruhiyyəsi Ermənistanda siyasi dözümsüzlüyün yüksək səviyyəyə çatması ilə nəticələnib. Bunu qapalı və açıq şəkildə keçirilən rəy sorğuları da təsdiqləyir. Respublikaçılara qarşı son həbs və təqib cəhdləri seçkidən sonrakı dövrdə işğalçı ölkədə vəziyyətin sabitləşəcəyi barədə ehtimalları da aradan qaldırır.

Erməniləri gözləyən yeni təhlükəyə işarə edən Respublikaçı Partiyanın mətbuat katibi Eduard Şarmazanov N.Paşinyanı cəmiyyəti "qara"lara və "ağ"lara ayırmaqda günahlandırıb. Onun sözlərinə görə, N.Paşinyan və tərəfdarları cəmiyyətdə narazı vətəndaşların sayının artması üçün son 7 ayda əllərindən gələni ediblər: **"Ermənistan üçün indiki çətin durumda milli birlik çağırışlarını səsləndirmək əvəzinə, Paşinyan cəmiyyətin bir hissəsini digərinə qarşı düşmən əhval-ruhiyyədə kökləyir, onunla hesablaşmayanları "asfalta uzatmaq" barədə bəyanatlar verir, qışqırır və eyni zamanda, bizi "bədbəxtlik gətirən insanlar" adlandırır".**

N.Paşinyan isə öz ampluasındadır. Belə ki, o, son çıxışlarının birində kilsəni və dini sektaları "totalitar" metodlarla fəaliyyət göstərməkdə ittiham edib. Bu isə dindarların da ona qarşı narazılığına gətirib çıxara bilər. Digər tərəfdən, seçkiqabağı kampaniya zamanı cəmiyyətin bütün təbəqələrindən olanları və rəqiblərini hədələməklə yanaşı, N.Paşinyanın bir-birinə zidd bəyanatları da diqqət çəkir. Belə ki, dünənə qədər indiki sistemin "tam ideal" olduğunu söyləyən bu şəxs gələcəkdə parlament idarəçilik sistemindən imtina edilərək prezident üsul-idarəsinə keçilməsi yönündə konstitusiyada dəyişiklik edilməsinin mümkünlüyü barədə fikirlər səsləndirib. Çox güman, ona qarşı çıxanları "asfalta uzatmaq"la hədələyən N.Paşinyan yəqin edib ki, həmin iş prinsipini tətbiq etsə, indiki sistem köməyinə gəlməyəcək. Ona görə də o, prezident üsul-idarəsinin bərpası barədə düşünür. Erməni KİV-in məlumatına görə, qisasçılıq siyasətindən əl çəkməyən N.Paşinyan tərəfindən artıq növbəti kütləvi həbslərə start verilib. Bu xəbərlər keçmiş rejimin nümayəndələrində, habelə respublikaçıların ailələri və yaxınları arasında təşviş və narazılıq yaradıb.

Yayılan son məlumatlar isə 9 dekabr seçkiləri ərəfəsində Ermənistanın regionlarında hansı biabırçılıqların baş verdiyini göstərir. Belə ki, artıq Paşinyanın təyin etdiyi şəxslər tərəfindən qanun pozuntularına da start verilib. "Jamanak" ("Zaman") qəzeti yazır ki, Qeqarkunik vilayətinin qubernatoru Qnel Sanosyan kənd icmalarının rəhbərlərini çağıraraq "Mənim addımım" blokundan olan namizədlərin lehinə fəaliyyət göstərməyi tapşırıb. Qeyd olunur ki, Q.Sanosyan bu fəaliyyətin yerinə yetirilməsi yönündə göstəriş verən tək vəzifəli şəxs deyil. Demək olar ki, Ermənistandakı bütün rayon və kənd icmalarından belə siqnallar alınır. Kənd icmalarının rəhbərləri Paşinyanın lideri olduğu blokun namizədlərinin qalib gəlmələri naminə çalışmağa məhkumdurlar. Çünki onları hədələyiblər ki, bu şəxslərin məsul olduqları ərazilərdəki məntəqələrin seçki qutularından başqa partiyanın namizədi qalib olaraq çıxsa, həmin vəzifəli şəxsi istefa verməyə məcbur edəcəklər.



Bir sözlə görünən odur ki, özünü "demokrat" kimi göstərməyə çalışan N.Paşinyan indidən qanun pozuntularına rəvac verməklə hakimiyyətini möhkəmləndirməyə çalışır. Bu addımlar isə Ermənistan cəmiyyətində parçalanma və qarşıdurmaya yol açan siyasi dözümsüzlük mühitinin daha da dərinləşməsinə şərait yaradır. Ekspertlərin ümumi qənaətinə görə, bu cür qeyri-müəyyən şəraitdə baş tutacaq seçkilər işğalçı Ermənistan üçün sabitlik yox, yeni qarşıdurmalar, ən nəhayət xaos vəd edir.

**Qaşqay ZİYƏDDİNOĞLU**

YENİ AZƏRBAYCAN
http://www.yeniazerbaycan.com
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

**Məqalə KİVDF-nin maliyyə dəstəyi ilə "Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi" istiqaməti üzrə həyata keçirilən layihə çərçivəsində hazırlanmışdır**

KİVDF
www.kivdf.gov.az

# Azərbaycanın bölgələrində müasir təhsil infrastrukturunun yaradılması diqqət mərkəzində saxlanılır

*Həyata keçirilən məqsədyönlü tədbirlər, o cümlədən regionlarda yeni məktəblərin istifadəyə verilməsi, maddi-texniki bazanın möhkəmləndirilməsi təhsilin keyfiyyət göstəricilərinin yaxşılaşmasına müsbət təsir göstərir*




(əvvəli ötən sayımızda)

Sonra təhsil nazirinin müavini Firudin Qurbanov çıxış edib, ölkəmizdə təhsilin inkişafı istiqamətində görülən işlərdən, qazanılan uğurlardan danışıb. Nazir müavini "Enerji səmərəliliyinin təmin olunması" layihəsinin reallaşmasına görə Çexiya səfirinə təşəkkürünü bildirib.

Səfir Milan Ekert layihənin ekoloji əhəmiyyətindən söz açıb. İnsanlar və ölkələr arasında körpülərin qurulmasının heç də asan olmadığını vurğulayan səfir Çexiya ilə Azərbaycan arasında yaxşı münasibətlərin, strateji anlaşmanın olduğunu deyib. Bildirib ki, hələ qarşıda müxtəlif sahələrdə bir çox əməkdaşlıq imkanları mövcuddur.

Çexiyanın təhsil, idman və gənclər nazirinin müavini Dana Prudikova çıxışında iki ölkənin bir-birinə həmişə dəstək olduğunu söyləyib, təhsilin keyfiyyətinin vacibliyini, bunun üçün yaxşı şəraitin yaradılmasının zəruriliyini diqqətə çatdırıb, məktəbin kollektivinə uğurlar arzulayıb.

Sonra qonaqlar kompüter və sinif otaqlarını gəzib, yaradılan şəraitlə tanış olublar.

Bu yaxınlarda Ağdam rayonunun Bənövşələr kəndində yeni inşa olunan 260 şagird yerlik məktəb binası da istifadəyə verilib. Bu münasibətlə rayon ictimaiyyətinin, təhsil işçilərinin, valideynlərin, kənd sakinlərinin iştirakı ilə açılış mərasimi keçirilib. Rayon İcra Hakimiyyətinin başçısı Vaqif Həsənov mərasimdə çıxış edərək, məktəbin kollektivini və kənd sakinlərini əlamətdar hadisə münasibətilə təbrik edib, ölkəmizdə gedən sosial-iqtisadi inkişafdan, təhsil sahəsində həyata keçirilən məqsədyönlü tədbirlərdən, Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın təhsilə göstərdiyi diqqət və qayğıdan danışıb. Şagirdlərə onlar üçün yaradılan şərait müqabilində yaxşı oxumağı, elmə, biliyə daha dərindən yiyələnməyi tövsiyə edib.

Sonra tədbir iştirakçıları məktəbdə yaradılmış şəraitlə tanış olublar. Məktəb binasında sinif otaqları, fənn kabinələri, fizika laboratoriyası, kompüter otağı, kitabxana, akt zalı yaradılıb, təhsil ocağı yeni inventar və avadanlıqla təchiz edilib.

Regionların sosial-iqtisadi inkişafına dair üçüncü Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlərə müvafiq olaraq Astara rayonunun Burzubənd kəndində isə 360 şagird yerlik yeni məktəb binası tikilir. Təhsil Nazirliyinin sifarişi ilə "Litosfer" MMC-nin inşaatçıları tərəfindən tikilən ikimərtəbəli, üç korpusdan ibarət yeni təhsil ocağının tikintisində 20-dən çox yerli işçi çalışır. Müasir arxitektura üslubunda tikilən təhsil ocağında şagirdlərin yüksək səviyyədə təhsil almaları üçün hər cür şərait olacaq.

Ərazidə 120 metr dərinliyində artezian quyusu qazılıb, 30 və 100 tonluq su anbarları inşa edilib. İşıq, istilik və su sistemləri quraşdırılacaq, məktəbin həyətində idman meydançası və istirahət guşələri yaradılacaq. Yeni məktəb binasının 2019-cu ilin sentyabr ayında istifadəyə verilməsi nəzərdə tutulub.

Sabirabadın 1176 şagird yerlik Qaratəpə kənd tam orta məktəbinin binasında əsaslı təmir işləri isə yekunlaşmaq üzrədir. 1981-ci ildə istifadəyə verilən məktəb binasında 35 il ərzində təmir işləri aparılmayıb. Bu da məktəbdə təhsilin yüksək səviyyədə təşkilində müəyyən çətinliklər yaradırdı. Bu problem nəzərə alınaraq ötən ilin sonlarında məktəb binasında təmir işlərinə başlanılıb.

Təmir zamanı məktəb binasının su, qaz, elektrik xətləri, dam örtüyü, qapı və pəncərələri dəyişdirilib, havalandırma sistemi qurulub, sinif otaqları, fənn kabinələri, idman və akt zalları, dəhliz və digər yardımçı otaqlar, demək olar ki, yenidən tikilib. Hazırda təhsil ocağında yeni avadanlıq və inventarlar quraşdırılır, ərazidə abadlıq işləri aparılır. Məktəb binası yaxın günlərdə müəllim və şagird kollektivinin istifadəsinə veriləcək.

Onu da vurğulayaq ki, respublikamızda təhsil infrastrukturunun müasirləşdirilməsi proqramı çərçivəsində yeni layihə də uğurla icra edilir. Söhbət regionlarda kontingenti az olan təhsil ocaqları üçün modul tipli məktəb binalarının quraşdırılıb istifadəyə verilməsindən gedir. Xatırladaq ki, 2017-ci ildə respublikanın 40 rayonunda təxminən beş min şagirdi əhatə edən yüz modul tipli məktəb inşa edilib. Bu il də anoloji məktəblərin tikintisi davam etdirilir. Bir müddət öncə Siyəzən rayonunun Tuğay kəndində 80 şagird yerlik yeni modul tipli məktəb binası tikilib istifadəyə verilib. Ümumi orta məktəbin yeni binasında 7 sinif və digər təyinatlı otaqlar var. Modul tipli bina yanğın xəbərdarlıq sistemi, işıq və su təchizatı ilə təmin olunub. Tikintisinə 2017-ci ilin fevral ayında başlanılan birmərtəbəli tədris ocağının ümumi sahəsi 300 kvadratmetrdir.

Respublikamızın bölgələrində təhsil infrastrukturunun müasirləşdirilməsi və təhsilin keyfiyyətinin yüksəldilməsi məqsədilə Prezident İlham Əliyevin 2018-ci il 5 aprel tarixli Sərəncamına əsasən isə hazırda Tovuz rayonunda, ümumilikdə, 332 şagird yerlik 6 modul tipli məktəb binası quraşdırılır. Tovuz rayon İcra Hakimiyyətindən bildirilib ki, modul tipli məktəb binaları əsasən rayonun dağ kəndlərində inşa olunur. Artıq bir sıra kəndlərdə quraşdırma işləri başa çatmaq üzrədir.

Ağsu rayonunun şimal dağlıq ərazisində rayon mərkəzindən 40 kilometr məsafədə yerləşən Hacman kəndində də ibtidai məktəb üçün 40 şagird yerlik yeni modul tipli tədris ocağı istifadəyə verilib. Məktəbin açılış mərasimində rayon İcra Hakimiyyəti başçısının müavini Sevil Mirzəliyeva, təhsil şöbəsinin müdiri Səftər Ələbbasov ölkəmizdə təhsilin inkişafına göstərilən dövlət qayğısından danışıblar.

Çıxışlarda respublikamızın bütün bölgələrində olduğu kimi, Ağsu rayonunda da ümumtəhsil məktəblərinin maddi-texniki bazasının möhkəmləndirilməsi ilə əlaqədar görülən işlərdən, həyata keçirilən layihələrdən söz açılıb. Diqqətə çatdırılıb ki, Göydəlləkli kəndində ümumi orta məktəb üçün 90 şagird yerlik modul tipli yeni bina da istifadəyə hazırdır. Bundan başqa, Abasxanlı kəndində tam orta, Sarvan və Sanqalan kəndlərində ümumi orta məktəblər üçün də 90 şagird yerlik modul tipli təzə binaların quraşdırılması üçün dövlət vəsaiti ayrılıb və yaxın vaxtlarda işlərə başlanılacaq.

Sonda qonaqlar yeni binada müasir inventar və avadanlıqla təchiz olunmuş sinif otaqları, fənn kabinetləri ilə tanış olublar.

Onu da qeyd edək ki, artıq Ağsu rayonunun daha bir yaşayış məntəqəsində - Göydəlləkli kəndində ümumi orta məktəb üçün 80 şagird yerlik modul tipli yeni tədris ocağı istifadəyə verilib. Məktəbin açılış mərasimində bildirilib ki, son 15 ildə təkcə Ağsuda ümumtəhsil məktəbləri və məktəbdənkənar müəssisələr üçün 28 yeni bina istifadəyə verilib.

Bu məqamda vurğulamaq yerinə düşər ki, Qax rayonunun Aşağı Malax və Fıstıqlı kəndlərində də qəzalı vəziyyətdə olan ümumi orta məktəblər üçün hər biri 40 şagird yerlik modul tipli yeni binalar quraşdırılır. Bundan əlavə, yaxın vaxtlarda Çinarlı kəndindəki ümumi orta məktəb üçün də modul tipli binanın quraşdırılmasına başlanılacaq. Rayonun Əmircan, Qapıçay, Qarabaldır və Qaradolaq kəndlərində qəzalı vəziyyətdə olan ümumi orta məktəblər üçün quraşdırılan modul tipli binalarda isə tikinti işləri artıq yekunlaşıb. Bu məktəblərin ikisi 80, ikisi isə 56 şagird yerlikdir.

Yeri gəlmişkən, bu proses Xaçmaz rayonunda da uğurla davam etdirilir. Belə ki, verilən məlumata görə, Xaçmazın Qaracəlli, Cığatay və Alıcqışlaq kəndlərində modul tipli məktəb binaları quraşdırılır. Rayonun Ərəb kəndində tikilən 40 şagird yerlik ibtidai məktəb binası isə akt zalı, 4 sinif və müəllimlər otağından ibarətdir. Məktəb müasir avadanlıqlar və mərkəzləşdirilmiş istilik sistemi ilə təmin edilib.

Xaçmazda 2018-ci ilin sonuna kimi istifadəyə verilməsi nəzərdə tutulan 4 modul tipli məktəb binasında 300 nəfərə yaxın şagird təhsil alacaq.

Neftçala rayonunda da son illər təhsil ocaqlarının maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində mühüm işlər görülür. Rayonun qəsəbə və kəndlərində yeni-yeni məktəb binaları tikilib istifadəyə verilir, mövcud binalar isə əsaslı təmir olunur. Hazırda Neftçala rayonunda bu istiqamətdə xeyli iş görülüb. Son illər rayonda 15 yeni məktəb binası tikilib istifadəyə verilib, 3 bina isə əsaslı təmir olunub. Təkcə ötən il rayonun ayrı-ayrı kəndlərində modul tipli 5 məktəb binası quraşdırılaraq şagirdlərin ixtiyarına verilib. Prezidentin Sərəncamı ilə bu il rayonda modul tipli daha 7 məktəb binasının quraşdırılması nəzərdə tutulub.

Rayon Təhsil Şöbəsinin müdiri Əjdər Kərimov bildirib ki, məktəb binaları rayonun Mirzəqurbanlı, Pirəppə, Qaraqaşlı, Aşağı Sura, Xoltəzəkənd, Xolqaraqaşlı və Qazaxdərə kəndlərində quraşdırılacaq. Ümumi orta məktəblər üçün nəzərdə tutulan binaların beşi 56, ikisi isə 80 şagird yerlikdir. Binalar üçün kəndlərdə münasib yerlər ayrılıb və tikinti işləri aparılır. Artıq Pirəppə və Qaraqaşlı kəndlərində 56 şagird yerlik ümumi orta məktəb üçün quraşdırılan tikililərdə inşaat işləri yekunlaşmaq üzrədir. Yaxın günlərdə məktəb binaları şagirdlərin istifadəsinə veriləcək. Qalan 5 binanın tikintisinin isə bu ilin sonuna kimi başa çatdırılması nəzərdə tutulub.

Xatırladaq ki, modul tipli məktəb binaları azməsrəfli olması, qısa müddətdə istənilən relyefdə quraşdırılması, asan daşınması, şagirdlərin sayına uyğun olaraq sinif otaqlarının rahatlıqla azaldılıb-artırılması ilə fərqlənir. Bütövlükdə isə, təhsil infrastrukturunun yenidən qurulması, müasirləşdirilməsi bu sahənin inkişafında vacib rol oynayır.

**Nardar BAYRAMLI**

# "Azercell" Əşyaların İnterneti ilə rabitənin yeni sərhədlərini açır

*Azərbaycanın aparıcı mobil operatoru BakuTel-2018 sərgisində geniş avtomatlaşdırılmış həllər və telekommunikasiya sahəsində ən son trendləri nümayiş etdirəcək*




"Əşyaların İnterneti" (İOT) texnologiyaları müxtəlif cihazlar arasında məlumat paylaşımının yeni səviyyəsi kimi şəbəkələr vasitəsilə kommunikasiya üçün geniş imkanlar açaraq daha sıx əlaqəli dünya qurmağa kömək edir. İOT unikal identifikatorlarla təchiz olunmuş və insan-insan və ya insan-kompüter əlaqəsi tələb olunmadan məlumatı şəbəkə vasitəsilə ötürmək qabiliyyətinə malik bir-biri ilə qaşılıqlı əlaqəli hesablama cihazları, mexaniki və rəqəmsal maşınlar sistemidir. Azərbaycanın ən müasir mobil kommunikasiya xidmətləri təchizatçısı olan "Azercell" Telekom özünün insanları yüksək texnologiyalar vasitəsilə birləşdirmək məqsədinə sadiq qalaraq 24-cü BakuTel sərgisində müxtəlif yüksək texnoloji həllər nümayiş etdirəcək. Bu dəfə də "Azercell" 4-7 dekabr 2018-ci il tarixlərində keçiriləcək sərginin əsas iştirakçılarından biri olmaqla bərabər, bu əhəmiyyətli texnoloji tədbirin əsas sponsoru kimi çıxış edir.

Lider mobil operator öz stendində biznes, pərakəndə müştərilər və texnoloji innovasiyaların izləyiciləri üçün geniş çeşiddə məhsul və həllər təqdim edəcək:

## AVTOMATLAŞDIRILMIŞ HƏLLƏR

YuMi (You and Me, "Sən və Mən") - universal robot-həmkar bu il "Azercell" stendində qonaqları salamlayacaq. Müştərək fəaliyyətə hazır, iki qollu, kiçik hissələrdən ibarət və hərəkətli əllər, kamera ilə hissənin yerini müəyyən etmə və ən müasir nəzarət funksiyası ilə təchiz olunmuş robot insanlar ilə çiyin-çiyinə eyni iş üzərində çalışa bilir. İnnovativ, insan üçün rahat və inqilabi funksionallıqla fərqlənən robot sənayedə geniş qlobal avtomatika potensialını üzə çıxarmaq məqsədilə hazırlanmışdır.

MyKi Touch, MyKi Pet və MyKi Auto kimi müxtəlif kiçik təhlükəsizlik cihazları vahid bir tətbiq (app) vasitəsilə müxtəlif məlumatları izləməyə imkan verir:

## SMART AQRAR XİDMƏTİ

Smart aqrar xidmətləri, SIM-kartı olan xüsusi IoT (Əşyaların İnterneti) cihazından istifadə etməklə hava və torpağın xüsusiyyətlərini ölçmək üçün sahə sensorlarının quraşdırılması yolu ilə məhsuldarlığı artırmaq üçün nəzərdə tutulmuşdur. Fermerlər bu texnologiyanın köməyi ilə havanın temperaturu və havadakı rütubətlilik barədə real vaxt rejimində məlumatlar, eləcə də torpağın parametrlərini və suvarma ilə bağlı tövsiyələr əldə edə bilərlər.

MyKi Touch uşaqlara nəzarət üzrə yeni nəsil izləmə funksiyasıdır və valideynlərə övladları ilə əlaqə qurmaq və onların yeri barədə real vaxt rejimində məlumat əldə etmək imkanı verir. Uşağın yerini dəqiq müəyyən edən GPS modulu, SOS düyməsi, öncədən təyin olunmuş təhlükəsiz zonalar və digər funksiyalarla MyKi Touch sizin övladlarınızın təhlükəsizliyini təmin etmək üçün ən yaxşı vasitədir. İnteqrasiya edilmiş "taçsensor"un sayəsində valideynlər həmin anda uşaqların saatı taxıb-taxmadığından xəbərdar olurlar.

MyKi Pet adlı ağıllı cihaz ilə sahibləri artıq ev heyvanlarının harada olduqlarından dolayı narahatlıq keçirməyəcəklər. Bu cihaz onlara heyvanların yeri barədə məlumat verir, xüsusi təhlükəsizlik zonalarını təyin etməyə və hətta heyvanlara məsafədən göstəriş verməyə imkan yaradır.

MyKi Auto heç bir naqil olmadan, sadəcə istənilən nəqliyyat vasitəsinə bir maqnitin yerləşdirilməsilə avtomobil və karqo üçün tam təhlükəsizlik təmin edir: avtomobilin yeri barədə məlumat verir, enerjiyə qənaət rejimi olan batareyası, ani məlumatlandırma ilə oğurluq hallarının qarşısının alınması funksiyası, səyahət barədə məlumat və digər xüsusiyyətlərlə təchiz olunub. Qeyd etmək yerinə düşər ki, MyKiAuto enerji təchizatı tələb etmir və tam avtonom rejimdə çalışır.

"Azercell" Smart Home (Ağıllı Ev) adlı yeni innovativ xidmət sizin evinizi daha funksional, daha rahat və təhlükəsiz edəcək. Bu xidmət sizə istənilən yerdən bir tətbiqetmə vasitəsilə işıqlandırma, cərəyana qoşulma, temperatur və otaqdakı hərəkətlərə tam nəzarət imkanı verir.

## GÜNDƏLİK HƏYATINIZI ASANLAŞDIRIN

Sizin eviniz sizin şəxsi, daha çox zövq almaq və özünüzü rahat hiss etmək istədiyiniz məkandır. Artıq evinizi sizin istəklərinizi anlayan bir məkana çevirə bilərsiniz. "Azercell" Smart Home ilə siz asanlıqla və cəld şəkildə işığın intensivliyini, otağın temperaturunu və evinizdəki kiçik cihazların funksiyalarını öz istəklərinizə uyğun idarə edə və beləliklə, rahatlıqdan zövq ala bilərsiniz.

## TƏHLÜKƏSİZ EVDƏ YAŞAYIN

Sizin eviniz elə bir məkandır ki, orada siz özünüzü dünyanın istənilən yerindən daha təhlükəsiz hiss etmək istəyirsiniz. Evə kameralar, sensorlar və digər xırda aksessuarlar yerləşdirin və evinizdəki hərəkətlər barədə anında məlumat alın. Artıq siz öz evinizi davamlı şəkildə izləyə, tam nəzarət edə və xoşagəlməz hallardan uzaq ola bilərsiniz. Bunun sayəsində özünüz və sevdikləriniz üçün daha təhlükəsiz şərait yarada bilərsiz.

## EVİNİZDƏ İDEAL ŞƏRAİTDƏN ZÖVQ ALIN

Sizin eviniz tam nəzarətinizdə olan bir məkan olmalıdır. Artıq ağıllı cihazların köməyilə siz evinizdə sərf olunan enerjiyə məsafədən nəzarət edə və onu düzgün şəkildə idarə edə bilərsiniz. Siz real ehtiyaclarınıza uyğun enerji sərf edəcək və beləliklə də ona qənaət edəcəksiniz.

"Azercell" Ağıllı Ev həlli birbaşa mobil telefondan ev cihazlarına nəzarət etmək, hərəkət və tüstü detektorları vasitəsilə öz evinizdə baş verənlər barədə anında məlumat almaq, evdə olmadan məsafədən evin temperaturunu idarə etmək istəyən hər kəs üçün ideal seçimdir.

Beləliklə də siz evə gələrkən və yaxud evi tərk edərkən orada hansı proseslərin avtomatik baş verməsi barədə qaydalar və ssenariləri özünüz müəyyən edə bilərsiniz.

## "AZERCELL" EKSKLÜZİV

"Azercell" stendinin pərakəndə satış bölməsi ən son innovasiyaları sınaqdan keçirmək üçün ən uyğun yerdir. Bu guşədə həmçinin "Azercell" Plus xidmətləri çərçivəsində Zvooq, Bookmate, Bookmate Audio tətbiqetmələri də nümayiş olunacaq.

Mysim.az məlumat bazasına birləşmiş xüsusi monitor abunəçilərə arzu etdikləri nömrə kombinasiyasını yığaraq dərhal BakuTel sərgisində arzuladıqları nömrəni tapmaq və onu istənilən "Azercell" Eksklüziv mağazasında əldə etmək üçün qeydiyyatdan keçmək imkanı verir. Bu axtarış sistemi bir saniyədə istənilən "Azercell" nömrəsini müəyyən etmək və satış nöqtəsinə uyğun olaraq onun yerini göstərmək imkanına malikdir.

## KORPORATİV SEQMENT

"Azercell"in korporativ müştəriləri də yeni təkliflərdən məmnun qalacaq. Məsələn, "Şirkətim" paketi yeni qoşulmuş korporativ seqment müştərilərinə aylıq 1000 ölkədaxili danışıq dəqiqələri və 3GB mobil internet təqdim edir. Korporativ bölmədə həmçinin şirkətlər üçün internetdən geniş istifadə imkanı verən rominq təklifi təqdim ediləcək. Yeni rominq internet paketi korporativ müştərilərə cəmi 16 AZN ödəməklə 1GB internetdən yararlanmaq imkanı verir. "Azercell" tədbir boyu zamanı həmçinin Virtual ATS innovativ biznes həllini təqdim edəcək. Bu həll ilə şirkətlər smartfonlar üçün ATS-in təşkili, müştəri xidmətləri mərkəzinin yaradılması və reklam kampaniyaları keçirilən zaman çoxkanallı "qaynar xətt"in qurulmasına nail ola biləcəklər. Bundan başqa, Virtual ATS həlli fərdi telesekretar, konfrans zəng, zənglərin idarə edilməsi və digər 10-a yaxın funksiyalarla bizneslərə eksklüziv imkanlar verir.

## SAHİBKARLIĞA DƏSTƏK

"Azercell" innovativ layihələrin inkubasiyasının əsas yaradıcısı kimi Barama İnnovasiya və Sahibkarlıq Mərkəzi üçün sərgi zamanı xüsusi bölmə ayıracaq. Barama tərəfindən dəstəklənən startaplar burada informasiya texnologiyalarına əsaslanan müxtəlif biznes həllər nümayiş etdirəcək.

Vebsaytların hazırlanması üzrə "Owbike" layihəsi html səhifələrinin yaradılması üçün sizdən heç bir texniki bilik tələb etmir. Xüsusi proqram sizə mürəkkəb veb səhifələri qısa zamanda yaratmaq imkanı verəcək.

"Green Baku" kiçik startapı ölkədə ilk dəfə təkrar istifadə olunan materiallardan ekoloji cəhətdən təmiz dəftərxana məhsulları hazırlamağa nail olmuşdur. Daha çox startap layihələri, o cümlədən təhsil mərkəzlərində test yoxlaması aparmaq üçün "Appoll" platforması, "Happy Moments" portalı, "Dataforest" axtarış sistemi, "Wexplain" onlayn biznes platforması builki BakuTel sərgisində texnoloji trend izləyicilərinin diqqətinə çatdırılacaq.

## TEXNOLOGİYA İLƏ ƏYLƏNCƏ

Yüksək texnologiyalar "Azercell"in bütün stendlərində, o cümlədən şirkətin ənənəvi əyləncə guşəsində özünü göstərəcək. "Azercell" bir neçə gün ərzində bütün qonaqları texnologiyaya əsaslanan müsabiqələrdə iştirak etməyə və mobil operatordan xüsusi hədiyyə qazanmağa dəvət edir.

Builki telekommunikasiya sərgisi çox hərarətli olacaq, ən yüksək dərəcə isə "Azercell"in guşəsində müşahidə ediləcək!

Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
Baş redaktor:
Hikmət BABAOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyov - 66
Telefonlar:
598-37-76, 498-82-21
498-81-24, 498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 6074
"Kapital Bank"ın Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

İnformasiya mənbələrimiz:
"AZƏRTAC",
"Azadinform", "SİA"
Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Buraxılışa məsul:
Nadir AZƏRİ